ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# Elmi Kadr Hazırlığının Yol Xəritəsi

## Metodik Tövsiyə




Bakı - 2023

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

# ELMİ KADR HAZIRLIĞININ YOL XƏRİTƏSİ

*METODİK TÖVSİYƏ*

**Bakı – 2023**

**QƏRAR**

***Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi Şurasının 29 dekabr 2022-ci il tarixli iclasının 2 nömrəli protokoluna əsasən H.H.Əhmədov, A.F.Əlimuradova, Ş.V.Aslanov, L.A. Məmmədli, X.H. Rəhimova, İ.E.Ümidlinin "Elmi kadr hazırlığının yol xəritəsi" adlı metodik vəsaitinin (elektron) nəşri məqsədəuyğun hesab edilsin***

**Elmi məsləhətçi: Rüfət Əzizov** - Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktoru, kimya üzrə fəlsəfə doktoru.

**Rəyçilər:** ped. ü. elm. d., prof. **Akif Abbasov**, ped. ü. fəls. d., dos. **Ənvər Abbasov**


**Müəlliflər: Hümeyir Əhmədov** - pedaqogika üzrə elmlər doktoru, professor, RTA-nın xarici üzvü, Əməkdar elm və təhsil xadimi, Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri

**Lalə Məmmədli** – pedaqogika üzrə fəlsəfə doktoru, Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin aparıcı mütəxəssisi

**Aynur Əlimuradova** - Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin baş mütəxəssisi

**İlahə Ümidli** - Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin baş mütəxəssisi

**Şükür Aslanov** - Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin baş mütəxəssisi

**Xədicə Rəhimova** - Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin baş mütəxəssisi

# MÜNDƏRİCAT

Azərbaycanda elmi-pedaqoji kadr hazırlığının tarixi və müasir vəziyyəti.........6

Doktorant və dissertant hazırlığının alqoritmi.........19

**ELMİ KADR HAZIRLIĞI**

**MƏSƏLƏLƏRİ**.........20

**ÜMUMİ**
**MÜDDƏALAR**.........21

**1. Doktorantura (dissertantura) təhsilinin məzmunu və təşkili qaydaları**.........21

**2. Doktorluq proqramları üzrə təhsilin məzmunu və təşkili Qaydalarında istifadə edilən əsas terminlər və anlayışlar**.........22

**3. Doktorluq proqramları üzrə təhsilin infrastrukturu**.........23

**4. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin doktoranturada və dissertantlıq yolu ilə təhsil almaq hüququ**.........24

**5. Doktorantura səviyyəsində təhsilin məzmununa və tədris prosesinin təşkilinə qoyulan tələblər**.........24

**6. Doktorluq proqramları üzrə təhsilin idarə olunması**.........27

**7. Maddi-texniki, tədris bazası və kadr potensialı**.........27

**8. Doktorluq proqramları üzrə təhsilin idarə olunması və elmi rəhbərlərin (və ya məsləhətçilərin) keyfiyyət göstəriciləri**.........28

**9. Doktorantların (və ya dissertantların) bilik, bacarıq, vərdişlərinin səviyyəsi və qiymətləndirilməsi**. 28

**10. Doktorantın ixtisas kompetensiyası**.........30

**11. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə və təhsilin məzmununa qoyulan minimum tələblər**.........31

***FƏLSƏFƏ DOKTORU HAZIRLIĞI***.........34

**1. Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura**.........34

**1.2. Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya sənəd qəbulu**.........34

**2. Fəlsəfə doktoru hazırlığı üzrə dissertantura**.........35

**2.1. Fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya sənəd qəbulu**.........35

**3. İxtisas uyğunluğu**.........36

**4. Qəbul imtahanları və müsabiqə**.........36

**5. Elmi rəhbər (məsləhətçi)**.........37

**6. Fərdi iş planı**....................37

**7. Doktorluq imtahanları**....................37

**8. Attestasiya**....................38

**9. Fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyalara dair tələblər**....................38

**ELMLƏR DOKTORU HAZIRLIĞI**....................39

**1.Elmlər doktoru hazırlığı üzrə doktorantura**....................39

**1.1.Elmlər doktoru hazırlığı üzrə doktoranturaya sənəd qəbulu:**....................39

**2. Dissertantlıq yolu ilə elmlər doktoru hazırlığı**....................40

**2.1. Dissertantlıq yolu ilə təhkim olunmaq üçün sənəd qəbulu:**....................40

**3. Doktorantların və dissertantların attestasiyası**....................42

**4. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işlərinə qoyulan tələblər**.....42

**5. Doktorantların mükafatlandırılması və elmi-pedaqoji işlərə cəlb olunması**....................43

**Əlavə 1. Fəlsəfə doktoru proqramı üzrə əyani (qiyabi) doktoranturaya (dissertanturaya) sənəd təqdim etmiş şəxsə Elmi rəhbərin razılıq sənədi**....................45

**Əlavə 2. Fəlsəfə doktoru proqramı üzrə əyani (qiyabi) doktoranturaya qəbul (dissertanturaya təhkim) olunmuş şəxsə Elmi rəhbərin razılıq sənədi**....................46

**Əlavə 3. Elmlər doktoru proqramı üzrə əyani (qiyabi) doktoranturaya (dissertanturaya) sənəd təqdim etmiş şəxsə Elmi məsləhətçinin razılıq sənədi**....................46

**Əlavə 4. Elmlər doktoru proqramı üzrə əyani (qiyabi) doktoranturaya qəbul (dissertanturaya təhkim) olunmuş şəxsə Elmi məsləhətçinin razılıq sənədi**....................47

**Əlavə 5. Azərbaycan Respublikasının Təhsil İnstitutu doktorant və dissertantların elmi rəhbəri (elmi məsləhətçisi) haqqında ƏSASNAMƏ**....................48

**Əlavə 6. Azərbaycan Respublikasının Təhsil İnstitutunun doktorantına (dissertantına) elmi rəhbər (elmi məsləhətçi) təyin olunan şəxs ilə institut arasında M Ü Q A V İ L Ə**....................51

**Əlavə 7. Elmi rəhbərliyə icazə almaq üçün tələb olunan sənədlərin S İ Y A H I S I**....................53

**Əlavə 8. Azərbaycan Respublikasının Təhsil İnstitutu ilə institutun doktorantı arasında M Ü Q A V İ L Ə**....................54

**Əlavə 9. Azərbaycan Respublikasının Təhsil İnstitutu ilə institutun dissertantı arasında M Ü Q A V İ L Ə**....................55

**Fərdi iş planı**....................57

**Elmi rəhbərin razılıq ərizəsi**....................60

**Əlavə 10. Doktorantın (dissertantın) illik Attestasiyası**....................62

**Əlavə 11. Azərbaycan Respublikasının Təhsil İnstitutunun doktoranturasında (dissertanturasında) təhsil alanların illik attestasiyası**........................................................................................................ 64

**Əlavə 12. Attestasiya işinə əlavə 1. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmlər doktoru proqramı üzrə doktorant və dissertantların illik attestasiyalarına dair meyyarlar**.................................. 65

**Əlavə 13. Attestasiya işinə əlavə 2. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Fəlsəfə doktoru proqramı üzrə doktorant və dissertantların illik attestasiyalarına dair meyyarlar**...................................67

**Əlavə 14. Fəlsəfə doktoru proqramı üzrə doktorantın (dissertantın) ATTESTASİYASI**..........................68

**Əlavə 15. Elmlər doktoru proqramı üzrə doktorantın (dissertantın) ATTESTASİYASI**............................70

**Əlavə 16. Arayış**..........................................................................................................................................73

**Əlavə 17. BURAXILIŞ VƏRƏQƏSİ**..............................................................................................................73

**Tövsiyə edilən elmi rəhbərlər**.....................................................................................................................74

**ƏDƏBİYYAT SİYAHISI**...................................................................................................................................90

## Azərbaycanda elmi-pedaqoji kadr hazırlığının tarixi və müasir vəziyyəti

İndiki Azərbaycan Respublikasının Təhsil İnstitutu 1931-ci ildə yaradılmışdır. Həmin institutun 1932-ci ildə **Aspirantura şöbəsi** kimi yaradılan hazırki **Elmi-pedaqoji kadrların hazırlanması şöbəsi** öz fəaliyyətini "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununa (2009), "Elm haqqında" Azərbaycan Respublikası Qanununa (2016), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 01 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydaları"na, İnstitutun Nizamnaməsinə, şöbənin Əsasnaməsinə, İllik fəaliyyət planına əsasən qurur.

Müasir qloballaşma prosesi insanların təfəkkürünün, yeni reallıqlarına uyğunlaşmasını tələb edir, genişmiqyaslı informasiyanı təhlil edə bilərək operativ qərarlar qəbul edən, dövlətin bir çox vacib sahələrinin gələcəyini müəyyən edə bilən yeni nəsil kadrların hazırlanmasını diktə edir. Bu şəraitdə ali təhsil sistemi xüsusi funksiya yerinə yetirir. Belə ki, təhsil siyasəti elə yenidən qurulmalıdır ki, informasiya-texnoloji, texniki, mədəni sahələrdə innovasion proseslərin artan sürəti şəraitində düzgün istiqamət götürmək qabiliyyətinə malik olan kreativ düşüncəli mütəxəssislər hazırlana bilsin.

İnformasiya kommunikasiya texnologiyalarının sürətli inkişafı ümumilikdə keçmişə münasibətdə hadisələrin başvermə sürətinin yüksək səviyyədə artması ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev hələ 1970-80-ci illərdə informasiya texnologiyalarının inkişafının insan həyatında mühüm dəyişikliklərə səbəb olacağını hiss edərək bu sahəyə xüsusi diqqət yetirmiş, müvafiq mütəxəssislərin hazırlanmasına qayğı göstərmiş, bugünkü inkişafın təməlini qoymuşdur. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanda milli təhsil quruculuğundan danışarkən demişdir: "...Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar ..."

XXI əsrin başlanğıcında siyasi və iqtisadi sahələrdə Azərbaycanın potensial imkanlarının genişlənməsi əhalinin rifahının yüksəlməsinin əsas şərtlərindən biri oldu. Qloballaşma yolu ilə gedən müasir dünya qarşısında duran beynəlxalq rəqabətə tez uyğunlaşmaq bacarığı, onun uğurlu və davamlı inkişafı da müstəsna əhəmiyyət kəsb edən amillərdən biri kimi özünü göstərdi. Yüksək səviyyədə inkişafetmiş ölkələrin rəqabətlilik indeksi üzrə üstünlüyü başlıca olaraq təhsilin səviyyəsi ilə müəyyənləşən insan potensialının inkişafı ilə bir başa bağlıdır.

İndiki zamanda ölkəmizin iqdisadi inkişafının təminatı məhz bu sahə ilə sıx əlaqəlidir. Hazırda ölkəmizin bütün sahələrində olduğu kimi, təhsil sahəsində də sürətli dəyişikliklər baş verir. Lakin hələ həll olunmalı bir sıra problemlər də qalmaqdadır. Onların həlli yollarını əvvəlcədən proqnozlaşdırmaq çətindir.

Çünki əldə olunan bilik sürətli dəyişikliklərə görə tez bir zamanda köhnəlir. Bu səbəbdən də bilik və təhsilin paradiqması dəyişilir. Məhz buna görə də deyə bilərik ki, insanların əldə etdiyi ali təhsil bilikləri də müəyyən dəyişikliklərə məruz qalır.

Aktual məsələlərdən biri də indiki dövrdə universitetlərdə müasir tələblərə uyğun yeniliklər və beynəlxalq rəqabətə davamlılıq yaratmaqdır. Bunu nəzərə alan dövlətimiz dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, ali təhsil sahəsinə daim diqqəti artırır.

Azərbaycanın vahid Avropa ali təhsil məkanına inteqrasiyası, bir tərəfdən tədris-təhsil modellərinin müasir tələblərə uyğunlaşdırılması, digər tərəfdən isə Azərbaycanın formalaşmış ənənəvi təhsil sisteminin etik-mədəni özünəməxsusluğunun saxlanmasını bir zərurət kimi irəli sürür. Bu məqsədlə təhsil sisteminin bütün sahələrində vəziyyətin təhlili, mühüm amillərin nəzərə alınması qloballaşma proseslərinin intensivləşdiyi şəraitdə Azərbaycanın ali təhsil sisteminin modernləşdirilməsinin əsas təməli oldu.

Yeni minilliyin əvvəllərində ictimai-siyasi, iqtisadi, elmi və mədəni həyatının müxtəlif sahələrində dünyada yaranmış mövcud situasiyanın bütün ciddi təhlilləri, bir çox aparıcı alimlərin fikrincə, dövrün əsas məzmununu təşkil edən qloballaşma kontekstində aparılmalıdır. Söhbət artıq sosial mövcudluğun ənənəvi milli dövlət qurumları çərçivələrinə sığmayan, keyfiyyətcə yeni ümumbəşəri ümumiliyindən gedir.

Təhsil xərclərinin ilbəil artması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etməsi ilə birbaşa bağlıdır. BMT tərəfindən “Təhsil əsri” elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyir: “Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik”. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilə diqqəti və qayğısı sayəsində hazırda təhsil sistemində əsaslı islahatlar həyata keçirilir, müxtəlif istiqamətlər üzrə Dövlət Proqramları yerinə yetirilir. “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası” ilə bağlı bəzi tədbirlər haqqında 31 yanvar 2008-ci il tarixli Prezident Sərəncamı; 22 may 2009-cu il tarixli Prezident Sərəncamı ilə təsdiq olunmuş “2009-2013-cü illərdə Azərbaycan Respublıkasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”, “Təhsil sisteminin informasiyalaşdırılması Proqramı (2008-2012-ci illər)”, 4 may 2009-cu il tarixli Prezident Sərəncamı ilə təsdiq olunmuş “Elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı (2009-2015-ci illər)” xüsusi yer tutur. 2 fevral 2021-ci ildə təsdiq olunmuş “Azərbaycan 2030: sosial inkişafa dair Milli Prioritetlər” XXI əsrin tələblərinə uyğun olaraq təhsilin inkişaf etdirilməsini nəzərdə tutur.

İnstitutda elmi kadr hazırlığı təhsilin və elmin inkişafı proqramları üzrə fəaliyyət “Təhsil haqqında”, ”Elm haqqında” Azərbaycan Respublikasının Qanunlarına, Azərbaycan Respublikası Prezidenti yanında AAK-nın müvafiq Qərarlarına, Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnaməyə, Təhsil İnstitutun nizamnaməsinə,

EPKH şöbəsinin əsasnaməsinə, onun fəaliyyət planına və digər normativ-hüquqi aktlara əsaslanır.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan irəli gələn tədbirlərin həyata keçirilməsi istiqamətində fəaliyyətin aparılması, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün tipdən olan təhsil müəssisələrində təhsilin keyfiyyətinin qiymətləndirilməsinə dövlət nəzarətinin həyata keçirilməsi, fəaliyyət sahəsinə aid normativ-hüquqi sənədlərin işlənilib hazırlanmasında iştirak edilməsi, dövlət təhsil standartlarına uyğun olaraq monitorinq və qiymətləndirmələrin həyata keçirilməsi, təhsilin keyfiyyətinin qiymətləndirilməsi texnologiyasının işlənməsi və təkmilləşdirilməsi təhsilin inkişafı proqramları sahəsi üzrə mühüm vəzifələrdəndir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "...qloballaşma təbii prosesdir və yəqin ki, bu proses müəyyən düzəlişlərlə davam edəcəkdir. Xüsusilə belə olan halda, milli dəyərlərə önəm vermək, gənc nəsli milli dəyərlər əsasında tərbiyə etmək xüsusi əhəmiyyət daşıyır. Mən çox şadam ki, Azərbaycanda milli ənənələr güclənir, möhkəmlənir və bu prosesləri daha da sürətləndirmək üçün kompleks tədbirlər görülməlidir. Əlbəttə, təhsil bu işlərdə ən prioritet məsələdir".

Son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla apardığı sosial siyasət bunu təsdiq edir ki, yaxın zamanlarda bizim müəllimlərin sosial vəziyyəti ən müasir tələblər səviyyəsinə gətiriləcəkdir. Ölkəmizin dinamik və davamlı inkişaf edən iqtisadi potensialı bunu həyata keçirməyə real zəmin yaradır. Son illərdə hökumətimiz tərəfindən pedaqoji işçilərin əmək haqqlarının sistemli və mütəmadi şəkildə artırılması dediklərimizi bir daha təsdiq edir.

Bu bir reallıqdır ki, təhsilin modernləşdirilməsi milli ənənələr kontekstində müstəqil düşüncə predmeti idisə, yeni mərhələdə islahatların parametrləri müəyyən dərəcədə Avropa təhsil sistemi tərəfindən müəyyən olunur.

Ali təhsilin modernləşdirilməsinin əsas məqsədi ölkənin ali təhsil sisteminin milli-mənəvi ənənələrinə xas olan dəyərlərini yaşadaraq, Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununu Boloniya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmrəli ali təhsil sisteminin formalaşdırılmasıdır.

Azərbaycanda pedaqogika elminin inkişafını şərtləndirən, onun inkişafını təmin edən əsas amillərdən biri də elmi-pedaqoji kadr hazırlığıdır. Elmi-pedaqoji kadr hazırlığının əsas məqsədi təhsil işçilərinə pedaqogika, didaktika, psixologiya, inklüziv təhsil, bütövlükdə təhsilşünaslıq üzrə yenilikləri çatdırmaqla, təhsilin elmi əsaslar üzrə təşkili və idarə olunmasını təmin etmək, ali məktəblərin professor-müəllim heyətinin peşəkarlıq

səviyyəsini yüksəltməkdən ibarətdir. Ali təhsil islahatının yaxın və uzaq perspektivdə həyata keçirilməsi keyfiyyəti elmi-pedaqoji kadrların hazırlanmasından asılıdır. Buna görə də elmi-pedaqoji kadrların hazırlanması üçün lazımi şərait yaradılır, professor-müəllim heyətinin yeniləşməsinə və gəncləşməsinə diqqət yetirilir. Nəticədə təhsil sahəsində çalışan professor-müəllim heyətinin peşəkarlıq səviyyəsi yüksəlir. Ali pedaqoji məktəblərin pedaqogika kafedralarını, sabiq Azərbaycan ETPEİ-nin (indiki Təhsil İnstitutu) müvafiq şöbələrini zəruri səriştəyə malik elmi və elmi-pedaqoji kadrlarla təchiz etmək, yüksək ixtisaslı kadr hazırlığının mühüm tərkib hissəsi kimi həmişə diqqət mərkəzində olmuşdur.

Azərbaycanda elmi-pedaqoji kadr hazırlığının ilkin mərhələsi XX əsrin 20-ci illərinin ikinci yarısına təsadüf edir, ancaq o dövrdə elmi-pedaqoji kadr hazırlığının qaydasını, formalarını və müddətini dəqiq müəyyən edən normativ sənədlərin olmadığından "elmi əməkdaş", "elmi işçi", "aspirant" kimi nomenklatur anlayışlar arasında dəqiq fərq qoyulmamış, onların hüquq və vəzifələri müəyyən edilməmişdir. O zamanlar elmi işçilərin hazırlanması üçün maliyyə vəsaiti də ayrılmırdı.

1929-cu il mayın 18-də Respublika Xalq Maarifi Komissarlığı nəzdində Dövlət Elm Şurası elmi işçilərin hazırlanması haqqında Əsasnamə təsdiq etdi. Əsasnamədə göstərilirdi ki, aspiranturada təhsil müddəti 3 ildir. Aspirant həmin müddət ərzində elmi işini hazırlamalı və fakültənin açıq iclasında onu müdafiə etməlidir. Aspirant elmi işlə yanaşı, təhsil illərində rus dilini, azərbaycanlı olmadığı təqdirdə Azərbaycan dilini, həm də milliyətindən asılı olmayaraq xarici dillərdən birini öyrənməli idi. 30-cu illərə kimi Azərbaycanda pedaqoji elmlər üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlayan elmi müəssisə olmadığından, müəllim kadrları hazırlayan ali məktəblər pedaqogika elminin qarşısında duran vəzifələri yerinə yetirə bilmirdi. Gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan qabaqcıl müəllimlərin təcrübəsini ümumiləşdirməyə, pedaqogikanın elmi-nəzəri problemlərini, tərbiyə nəzəriyyəsini və didaktikanın mühüm problemlərini araşdırmağa ciddi ehtiyac duyulurdu. Bunun üçün həmin problemlə məşğul olan xüsusi elmi-tədqiqat müəssisəsinin yaradılması vacib idi.

**1931-ci ildə təsdiq olunan Azərbaycan Elmi-Tədqiqat Pedologiya İnstitutunda 1932-ci ildə struktur bölmə kimi aspirantura şöbəsi yaradıldı.**

Bakı şəhəri Xalq Maarifi Şöbəsinin 1930-cu il 30 iyun tarixli 30 nömrəli və Azərbaycan SSRİ Xalq Maarifi Komissarlığının 1931-ci il 29 iyun tarixli 87 nömrəli əmrinə əsasən 1931-ci il iyulun 1-də Azərbaycan SSRİ Xalq Maarifi Komissarlığının Elmi-Tədqiqat Pedaqoji Kabineti və Bakı şəhəri Xalq Maarifi Şöbəsinin laboratoriyası əsasında, təhsil sahəsində ilk elmi tədqiqat institutu Azərbaycan Elmi-Tədqiqat Pedologiya İnstitutu yaradılmışdır. İnstitutun adı, onun fəaliyyət istiqamətləri bir neçə dəfə dəyişdirilmişdir:

- 1931-ci il iyulun 1-dən 1932-ci ilin oktyabr ayınadək "Azərbaycan Elmi-Tədqiqat Pedologiya İnstitutu";
- 1932-ci il oktyabr ayından 1934-cü ilin oktyabr ayınadək "Azərbaycan Pedologiya və Pedaqogika İnstitutu";

- 1934-cü il oktyabr ayından 1934-cü ilin dekabr ayınadək “Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu”;
- 1934-cü ildən 1936-cı il avqust ayınadək “Azərbaycan Pedologiya və Pedaqogika İnstitutu”;
- 1936-cı il avqustdan 1937-ci ilin dekabr ayınadək “V.İ. Lenin adına Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu”;
- 1938-ci il yanvardan 1938-ci il iyun ayınadək “Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutu”;
- 1938-ci ilin iyunundan 1946-cı ilin yanvar ayınadək “Azərbaycan SSR Maarif Nazirliyinin Azərbaycan Dövlət Elmi-Tədqiqat Məktəblər İnstitutu”;
- 1946-cı ilin yanvarından 1951-ci ilin yanvar ayınadək “Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutu”;
- 1951-ci ildən 1977-ci ilin mart ayınadək ”Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu”;
- 1977-ci ilin martından 2000-ci ilin iyun ayınadək “Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu”;
- Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli 349 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdindəki Elmi-Metodik Mərkəz və Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun bazasında Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu yaradılmışdır.
- Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-ci il tarixli Fərmanı həmçinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na əsaslanaraq “Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu”nun adı dəyişdirilərək “Azərbaycan Respublikasının Təhsil İnstitutu” adlandırılmışdır. Bütün bu illər ərzində institutda Aspirantura (indiki Elmi-pedaqoji kadr hazırlığı) şöbəsi fəaliyyətini davam etdirmişdir. 10 elmi işçi və 6 laborantla işə başlayan institutda hazırda 350 nəfərədək yüksək ixtisaslı pedaqoq, psixoloq və metodist alimlər elmi-tədqiqat fəaliyyəti ilə ölkə təhsilin inkişafına öz töhvəsini verirlər.

1933-cü ildə Naxçıvan MSSR-də İnstitutun filialı (direktor Məmmədəli Əlizadə) yaradılmış, mərkəzi institutun əməkdaşlarının iştirakı ilə formalaşmışdır.

1934-cü ildə İnstitutun Elmi əsərləri nəşrə başladı və bu gün də öz işini uğurla (baş redaktor prof. A.N. Abbasov) davam etdirməkdədir.

1935-ci ildə İnstitutun Elmi şurasının təşkili mühüm hadisə olmaqla yanaşı kollegial elmi idarəetməninin imkanlarını genişləndirdi. Aparılan tədqiqatların Elmi şurada müzakirələrinin təşkili keyfiyyətin yüksəlməsinə əhəmiyyətli təsir göstərdi.

Müxtəlif dövrlərdə instituta Azərbaycanın görkəmli pedaqoqları və psixoloqları rəhbərlik etmişdir. İnstitutun ilk direktoru psixologiya elmləri namizədi Surxay Hacıyev (01.07.1931-10.01.1934) olmuşdur. Növbəti illərdə isə Qulam Məmmədov (10.01.1934-20.04.1935), Yunis Hacıyev (20.04.1935-17.06.1935), İsrafil Şeyxzaman (17.06.1935-08.08.1936), Davud Rəsulzadə (08.08.1936-25.01.1937), İlyas Musayev (25.01.1937-15.10.1937), Abdulla Salayev (15.10.1937-17.06.1938), İsrafil Şeyxzaman (17.06.1938-20.02.1940), Teymur Cabbarlı (20.02.1940-10.03.1941), Calal Əfəndiyev (10.03.1941-21.07.1944), Məmməd İsaxov (21.07.1944-22.05.1946), Cəmo Cəbrayılbəyli (22.05.1946-16.09.1950), Mərdan Muradxanov (16.09.1950-08.01.1951), Bəylər Ağayev (08.01.1951-26.07.1952), Əsədulla Əbdürrəhimov (26.07.1952-13.04.1955), Məmməd Ələkbərov (13.04.1955-14.10.1959), Mirzə Məmmədov (14.10.1959-26.09.1974), Nurəddin Kazımov (26.09.1974-20.05.1976), Zahid Qaralov (20.05.1976-21.11.1984), Yəhya Kərimov (21.11.1984-29.04.1987), Zahid Qaralov (29.04.1987-02.02.1996), Şəmistan Mikayılov (31.02.1996-14.07.2000), Asəf Zamanov (18.09.2000-28.03.2001), Abdulla Mehrabov (29.03.2001-13.08.2013), Qulu Novruzov (13.08.2013-06.04.2016), Emin Əmrullayev (06.04.2016-27.07.2020), Anar Nağıyev (27.07.2020-05.01.2021), instituta rəhbərlik etmişlər. Təhsil İnstitutunun direktoru Emin Əmrullayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Təhsil naziri vəzifəsinə təyin olunub. Hal-hazırda (06.01.2021-ci il tarixdən) İnstituta Moskva Dövlət Universitetinin aspiranturasının məzunu, kimya üzrə fəlsəfə doktoru Rüfət Eyvaz oğlu Əzizov rəhbərlik edir.

Azərbaycan Respublikasının Təhsil İnstitutunun 90 illiyi ərəfəsində direktor müavini, əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Ənvər Abbasovun "Azərbaycan müəllimi" qazetinin 2021-ci il 16 və 23 aprel tarixli nəşrlərində "Təhsil institutu: tarixilik və müasirlik müstəvisində" adlı məqalələrində geniş material çap olunduğunu nəzərə alaraq biz əsasən kadr hazırlığından söhbət açmağı məqsədə müvafiq saydıq.

İlk dövrdən aspiranturaya ən bacarıqlı, istedadlı gənclər (Əhməd Seyidov, Mehdi Mehdizadə, Məmmədsəlim Tahirli, Zümrüd Axundova, Qulam Hüseynov, Səməd Vurğun və b.) qəbul olunmuşdular. Sonralar (məsələn, 1935-ci ildə) aspiranturaya, əsasən, bir neçə il institutda fəaliyyət göstərmiş şəxslər (Mərdan Muradxanov, Vəlixan Mustafazadə, Əliş Həsənov, Əmir Tağıyev, İsmayıl Mərdəliyev, Surxay Hacıyev, Mirzəağa Quluzadə və b.) qəbul edilmişlər. Həmin şəxslər alimlik dərəcəsi aldıqdan sonra pedaqoji elmlərin, ədəbiyyatşünaslığın inkişafında böyük xidmət göstərmişlər. Elə həmin ildə institutun əməkdaşlarından Qulam Məmmədov, İsgəndər Novruzov, Aleksey Loqinov və b. qiyabi aspiranturaya qəbul olunmuşlar.

İlk aspirantlardan Əhməd Seyidov, Mehdi Mehdizadə və başqalarına keçmiş SSRİ-nin mərkəzi şəhəri olan Moskva alimləri rəhbərlik edirdilər. 1935-ci lidə Əli Abdullayev Moskva Elmi-Tədqiqat fiziologiya institutunun aspiranturasına göndərildi.

1936-cı ildə aspirant O. M. Çeqlakova Moskvada psixologiya üzrə namizədlik dissertasiyası müdafiə etdi. XX əsrin 30-40-cı illərdə pedaqogika ixtisası üzrə aspirantura xətti ilə elmi və elmi-pedaqoji kadr hazırlığında obyektiv və subyektiv xarakterli çətinliklər mövcud idi. Belə ki, aspirantların bəzilərinin təhsil hazırlığının kifayət qədər olmaması, rus və xarici dilləri zəif bilməsi, başqa dillərdəki ədəbiyyatlardan istifadəni çətinləşdirir, onların ixtisas səviyyələrinə mənfi təsir göstərməklə fərdi hazırlıq planlarının yerinə yetirilməməsi ilə nəticələnirdi. Başqa bir çətinlik isə pedaqoji elmlər üzrə respublikada yüksək ixtisaslı elmi rəhbərlərin-elmlər doktorlarının, professorların yoxluğu ilə bağlı idi.

1939-cu ildə aspirantura xətti ilə elmi kadrların hazırlanmasına diqqət daha da artırıldı. Aspirantların bəziləri (M. Muradxanov, V. Mustafazadə, Ə. Tağıyev, Ə. Həsənov və b.) bir il müddətinə Leninqrada, A. İ. Gertsen adına Pedaqoji İnstitutun aspiranturasına göndərildilər. Onların yüksək ixtisaslı alimlərin rəhbərliyi altında yetişdirilmələri üçün hər cür şərait yaradılmışdı. Leninqradın görkəmli pedaqoqlarından Ş.İ. Qanelin, Y.Y. Qolant, L.Y. Raskin, İ.V. Svadkovski və M.M. Rubinşteynin rəhbərliyi və yaxından köməkliyi həmin aspirantların bacarıqlı tədqiqatçı kimi yetişmələrinə güclü təsir göstərdi. Onlar Leninqraddan qayıtdıqdan sonra ciddi tədqiqatla məşqul oldular və ilk növbədə pedaqogikanın nəzəri problemlərini, o cümlədən kommunist tərbiyəsi və Azərbaycan pedaqoji fikrin tarixi məsələlərini araşdırmağa başladılar. 1932-1981-ci illər ərzində aspiranturada 231 nəfər təhsil almışdır. Onlardan 199 nəfəri vaxtında və müvəffəqiyyətlə namizədlik dissertasiya müdafiə etmişlər. 16 nəfər isə elmlər doktoru alimlik dərəcəsi almışlar. Yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında dissertanturanın rolu danılmazdır. Bu yolla 1981-ci il üçün 117 nəfər qabaqcıl müəllim, tərbiyəçi, elmi işçi institutun dissertantı idi. Bu dövrdə130-dan artıq maarif fədaisi namizədlik dissretasiyası müdafiə etmişlər. Həmin dövrlərdə sovet rus alimlərinin köməyi ilə yanaşı milli elmi-pedaqoji kadrlardan da istifadə edilmişdir. İnstitut 2011-ci il üçün 750 nəfər alim yetişdirmişdir. Onlardan 75 nəfəri elmlər doktorudur. İnstitutda digər elm və təhsil müəssisələri üçün yüsək ixtisasla elmi kadrlar da hazılanmışdır. Bu illərdə həmçinin SSRİ-nin aparıcı elmi və ali təhsil müəssisələrində sifarişli yolla milli kadr hazılığı da həyata keçirilmişdir.

Aspiranturaya bir qayda olaraq ən azı iki il maarif sahəsində iş stajına malik olan, elmi axtarışlara böyük həvəs göstərən, səriştəli müəllimlər, ali məktəbi fərqlənmə diplomu ilə bitirən gənc mütəxəssislər qəbul edilirdilər. Onlar pedaqogikanın tarixi və nəzəriyyəsi, psixologiya, deffektologiya, sosiologiya və xüsusi metodikaların aktual problemləri üzrə tədqiqat aparırdılar.

Aspirantlara rəhbərlik işinə institutun bir sıra təcrübəli əməkdaşları ilə yanaşı Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Pedaqoji Universiteti və digər ali təhsil müəsisələrinin görkəmli alimləri də cəlb edilmişlər.

Aspirant və dissertantlar üçün institutda Gənc Alimlər Şurası fəaliyyət göstərir. Bu Şuranın məşğələlərində elmi-tədqiqatın metodoloji əsasları, pedaqoji tədqiqatın

metodları, təcrübi materialların işlənməsi, alınmış nəticələrin təcrübədə sınaqdan keçirilməsi və s. məsələlər üzrə mühazirələr oxunur, həmçinin işgüzar söhbətlər təşkil edilir. Bu mühazirə və məsləhətlərə respublikanın görkəmli pedaqoq, psixoloq və metodistləri cəlb olunurlar.

II Dünya Müharibəsindən sonra respublikamızda getdikcə inkişaf edən pedaqoji institutların və pedaqoji elmin tələbatını təmin etmək məqsədilə pedaqoji elmlər sahəsində yüksək ixtisaslı elmi-pedaqoji kadr hazırlanması sürətlə genişləndi, pedaqoji elmlər namizədlərinin sayı ildən-ilə artdı, pedaqoji elmlər doktorlarının yetişməsinə şərait yarandı. Dövlət və hökumət orqanları elmi və elmi-pedaqoji kadr hazırlığını genişləndirmək məqsədilə müvafiq qərar və sərəncamlar qəbul edildi. 1944-cü il yanvarın 2-də SSRİ Xalq Komissarları Soveti yanında Ümumittifaq Ali Məktəb İşləri Komitəsinin "Ali məktəblərdə aspirantlar hazırlanmasını yaxşılaşdırmaq tədbirləri haqqında" qərarında aspirantların müsabiqə yolu ilə seçilməsi, müttəfiq və muxtar respublikaların ali məktəblərinin aspiranturasına yerli millətdən olan şəxslərin qəbuluna üstünlük verilməsi məqsədəuyğun hesab olundu.

1960-cı illərin ikinci yarısında respublikada pedaqoji elmlər üzrə elmi-pedaqoji kadr hazırlığında ixtisaslaşdırılmış müdafiə şuralarının yaradılması və Azərbaycan Dövlət Universitetinin (hazırki Bakı Dövlət Universiteti) müdafiə şurasına pedaqoji elmlərin müvafiq problemləri üzrə doktorluq dissertasiyalarının müdafiəsini təşkil etmək hüququnun verilməsi pedaqoji elmlərin inkişafını şərtləndirən əsas amillərdən birinə çevrilməklə, respublikanın elmi-pedaqoji həyatında böyük canlanma yaratdı, elmi-pedaqoji kadr hazırlığının yeni sistemi formalaşmağa başladı. 1960-1970-ci illərin birinci yarısında elmi və elmi-pedaqoji kadrların hazırlanmasının müxtəlif problemləri ilə əlaqədar rəsmi dövlət orqanlarının diqqət və qayğısını ifadə edən mühüm qərarlar qəbul edilir. Bu qərarların məntiqi nəticəsi olaraq elmi və elmi-pedaqoji kadr hazırlamağın əsas vasitəsi olan aspiranturada təhsil alanların sayı artdı, kadr hazırlığı respublikanın ali pedaqoji məktəblərinin tələbatına uyğun davam etdirildi.

Doktorant və dissertant hazırlığında mühüm mərhələ onların dissertasiya mövzularının düzgün seçilməsi ilə bağlıdır. Düzgün tərtib olunan plan dissertasiya işinin vacib tərkib hissəsidir. Tədqiqat mövzularında təkrarçılığa yol verilməməsi məqsədi ilə 1974-ci ildə Azərbaycan ETPEİ-də Pedaqoji və Psixoloji elmlər üzrə Elmi-Tədqiqatları Əlaqələndirmə Şurasının yaradıldı. 1934-cü ildən indiyədək namizədlik və doktorluq dissertasiyası müdafiə edənlərin siyahısı dövrlər üzrə qruplaşdırılıb nəşr olunmuşdur. Bu pedaqoji elmlərin inkişafında və elmi-pedaqoji kadr hazırlığında xüsusi mərhələ hesab olunmalıdır. 1974-cü ildə yaradılan həmin Şuranın ilk sədri prof. Nürəddin Mustafa oğlu Kazımov, sonra prof. Zahid İbrahim oğlu Qaralov olmuşdur. Müxtəlif illərdə prof. Y.Ş. Kərimov, Ş.A. Mikayılov, A.O. Mehrabov, Qulu Novruzov və İntiqam Cəbrayılov şuraya rəhbərlik etmişlər. Qısa müddətdə şuranın işində fasilə əmələ gəlmiş və şuranın institutdan alınması təhlükəsi yaranmışdı.

Lakin Təhsil Problemləri İnstitutunun sabiq direktoru Qulu Novruzovun səyi nəticəsində Şura fəaliyyətini yenidən davam etdirdi. Bir müddət Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şuranın sədri pedaqogika üzrə elmlər doktoru, dosent İntiqam Cəbrayılov və məsul katib filologiya üzrə fəlsəfə doktoru, dosent Əli Paşa Zeynalov rəhbərlik etmişlər. Yeri gəlmişkən deməliyik ki, Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şura bələdlik səviyyəsinə əsaslanan faydalı işlər görmüş, müntəzəm olaraq hər il respublikanın ali pedaqoji məktəbləri, universitetləri, sabiq Azərbaycan ETPEİ (hazırki Təhsil İnstitutu), sabiq MMTİ (keçmiş Azərbaycan Müəllimlər İnstitutu, hazırda ADPU) və digər elmi-tədqiqat müəssisələrində işlənilən yüzlərlə elmi-tədqiqat mövzularını əlaqələndirərək onların vahid planını tərtib etmiş, mövzu seçmək işində tez-tez müşahidə olunan təsadüfiliyə, paralelçiliyə, təkrarçılığa yol verilməməsinə çalışmış, namizədlik və doktorluq dissertasiyalarının mövzularının aktuallığına, nəzəri və praktik əhəmiyyətinə nəzarət etmiş, kollektiv və kompleks tədqiqatlar şəbəkəsini genişləndirmişdir.

Təəssüflər olsun ki, son iki ildə Əlaqələndirmə Şurası institutdan alınmış, tərkibində pedaqogika və psixologiya İnstitutu, şöbəsi və ya bölməsi belə olmayan AMEA-nın nəzdinə verilmişdir.

Elmi dərəcə və elmi adların verilməsini təsdiq edən SSRİ Ali Attestasiya Komitəsi 1932-ci ildə yaradılmış, 1934-cü ildən fəaliyyətə başlamışdı. Sonralar SSRİ AAK 1974-cü ilədək Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında olmuş, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin və SSRİ Nazirlər Sovetinin "Elmi və elmi-pedaqoji kadrların attestasiyasını daha da təkmilləşdirmək tədbirləri haqqında" qərarına əsasən SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komitəsinə çevrilmişdir. SSRİ AAK-sı 1992-ci ilə kimi Azərbaycanın ali məktəb və elmi-tədqiqat institutları Elmi Şuralarının qərarına əsasən alimlik dərəcələrini təsdiq etmiş, respublikamızda yaradılan şuralara doktorluq və namizədlik dissertasiyalarını müdafiə etmək hüququ vermiş, onların tərkibini təsdiq etmişdir. Hazırda bu funksiyanı Azərbaycan Respublikası Prezidenti yanında AAK həyata keçirir.

Aspirant, doktorant və dissertantların səmərəli fəaliyyət göstərmələrinə elmi rəhbərlər faydalı məsləhətləri ilə elmi-metodik istiqamət verirlər. Xüsusilə Azərbaycan Milli Elmlər Akademiyasından akademik R.M. Əliquliyev, M.M. Abbasov; Rusiya Təhsil Akademiyasından akademikləri Ş.A. Amonaşvili və H.M. Əhmədov, H.H. Əhmədov; institutun professorlarından Y.Ş. Kərimov, Ş.A. Mikayılov, Ə.Ə. Ağayev, V.C. Xəlilov, A.N. Abbasov, F.B. Sadıqov, R.İ. Əliyev, A.N. Rəhimov, P.B. Əliyev, İ.H. Cəbrayılov, H.H. Əhmədov, dosentlərindən Ə.M. Abbasov, A.X. Hacyev, İ.A. Cavadov; Bakı Dövlət Universitetinin professorlarından H.Ə. Əlizadə, Ə.S. Bayramov, C.M. Əhmədov, M.Ş. Babayev, Ə.Ə. Əliev, K.İ. Xudaverdiyev, A.C. Hacıyev, L.N. Qasımova; Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorlarından Ə.Ə. Əlizadə, F.A. Rüstəmov, M.S. Cəbrayılov, Ə.T. Baxşəliyev, S.M. Quliyev, S.S. Həmidov, A.S. Adıgözəlov, Q.E. Əzimov, M.M. Əmirov, M.İ. İlyasov, R.L. Hüseynzadə, Ə.M. Hüseynov, R.L. Sultanov; Azərbaycan

Dillər Universitetindən professorlar N.M. Kazımov, M.Ə. Həmzəyev, G.C.Hüseynzadə, D.A. İsmayılova; Bakı Slavyan Universitetindən prof. Ç.Ə. Bədəlov; Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasından prof. Y.R. Talıbov, D.Q. Quliyev və başqalarının yetirmələri dissertasiyalarını vaxtında və uğurla müdafiə etmiş və digərləri isə tədqiqatlarını müvəffəqiyyətlə davam etdirirlər.

Respublikada xalq maarifini inkişaf etdirmək və elmi-pedaqoji kadrlar hazırlamaq sahəsində səmərəli işinə görə və təşkil edilməsinin 50 illiyi ilə əlaqədar olaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika Elmləri İnstitutu (hazırki Təhsil İnstitutu) Azərbaycan SSRİ Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Alim nüfuzunu, şəxsiyyətini daha parlaq şəkildə nəzərə çatdırmaq üçün böyük ədibimiz Seyid Əzim Şirvaninin (1835-1888) "Rəbiül - ətfal" əsərindən bir neçə ibratamiz beyti hörmətli oxucuların diqqətinə cəlb etmək istərdim:

Üləma həqqini rəayət qıl,
Əhli - elmə həmişə hörmət qıl.

Elm bir nur, cəhl zülmətdir,
Cəhl düzəxdir, elm cənnətdir.

Sənə hər kimsə elm edər təlim,
Ona vacibdir eyləmək təzim.

Harda görsən, ona səlam eylə,
Baş əyib qul tək ehtiram eylə.

Hazırda institutda çalışan elmi işçilərin bir çoxu aspirantura, doktorantura və dissertanturasının yetirmələridirlər. İnstitutun hazırladığı yüksək ixtisaslı elmi kadrlar eyni zamanda respublikamızın müxtəlif pedaqoji və elmi müəssisələrində, eləcə də Azərbaycan Respublikası Təhsil Nazirliyində çalışırlar, həmçinin AMEA-da fəaliyyət göstərirlər. İnstitutun yetirmələri respublikanın müxtəlif elmi və pedaqoji təhsil müəssisələrində elmi işçi, baş müəllim, dosent, professor, kafedra müdiri, prorektor və rektor kimi çalışırlar.

Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli sərəncamı ilə yaradılan Təhsil Problemləri İnstitutunun (hazırki Azərbaycan Respublikasının Təhsil İnstitutunun) keçmiş **aspirantura şöbəsinin** bazasında yeni yaradılmış **Elmi-pedaqoji kadrların hazırlanması şöbəsi** kimi fəaliyyətini uğurla davam etdirir. Elmi-pedaqoji kadrların hazılanması şöbəsi Azərbaycan Respublikasının Təhsil İnstitutunun struktur vahidi olub, onun Nizamnaməsinə uyğun fəaliyyət göstərir. Şöbə işini institutun nəzdində olan bütün şöbələrin müvafiq əməkdaşlıqları, elmi müxbirləri, doktorant və dissertantları ilə əlaqələndirir, fəlsəfə və elmlər doktoru proqramları üzrə doktorant və dissertant hazırlığına rəhbərlik edir.

**Elmi-pedaqoji kadrların hazırlanması şöbəsi** Azərbaycan Respublikasının Təhsil İnstitutunun struktur vahidi olaraq ölkənin ali təhsil müəssisələri, AMEA-nın institutları, təhsil mərkəzləri və qurumları ilə, həmçinin, yerli və xarici (dövlət və özəl olmaqla) təhsil sisteminin idarəetmə strukturlarının doktorantura şöbələri ilə əməkdaşlıq edir. Beynəlxalq əməkdaşlığa əsasən universitetlərarası və qurumlararası ikitərəfli razılaşmalar, anlaşma memorandumları, əməkdaşlıq protokolları və digər bu kimi hüquqi vasitələr çərçivəsində həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli qərarı ilə Azərbaycan Respublikasının Təhsil İnstutunda fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə doktorant və dissertant hazırlığına icazə verilmişdir. İnstitutun adı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli qərarı ilə təsdiq edilmiş doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların siyahısında da yer almışdır.

"Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının fəaliyyətini tənzimləyən müvafiq hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 21 fevral tarixli 857 nömrəli Fərmanı ilə təsdiq edilmiş, 2008-ci il 5 iyun tarixli 769 №-li və 2011-ci il 15 fevral tarixli 381 nömrəli Fərmanları ilə əlavələr və dəyişikliklər edilmiş Doktorantura hazırlığı ali təhsilin üçüncü səviyyəsidir. Şöbə öz işini Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2019-ci il tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələrin verilməsi qaydası haqqında Əsasnamə"nin tələbləri əsasında aparır.

Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş doktorantura ixtisaslarının (proqramlarının) təsnifatına uyğun müvafiq ixtisaslar üzrə geniş profilli alim və mütəxəssis hazırlığının həyata keçirilməsini təmin edir.

Doktoranturada təhsil **fəlsəfə doktoru və elmlər doktoru** proqramları üzrə həyata keçirilir. Elmi dərəcələrin və elmi adların verilməsi qaydaları haqqında Əsasnamənin 2-ci, 4-cü və 38-ci bəndlərinə əsasən fəlsəfə doktoru elmi dərəcəsi iddiaçılarına dissertasiyalarının müdafiəsindən sonra Dissertasiya Şuralarının təqdim etdiyi vəsadət əsasında, 4-6 ay ərzində baxılaraq, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş nümunədə diplom verilir.

Doktoranturada təhsil **fəlsəfə doktoru və elmlər doktoru** proqramları üzrə həyata keçirilir. Elmi dərəcələrin və elmi adların verilməsi qaydaları haqqında Əsasnamənin 2-ci, 4-cü və 38-ci bəndlərinə əsasən fəlsəfə doktoru elmi dərəcəsi iddiaçılarına dissertasiyalarının müdafiəsindən sonra Dissertasiya Şuralarının təqdim etdiyi vəsadət əsasında, 4-6 ay ərzində baxılaraq, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş nümunədə diplom verilir.

Doktorant və dissertant hazırlığı üçün şöbə tərəfindən üç vəsait hazırlanıb sahə mütəxəssislərinin və oxucuların istifadəsinə təqdim edilib: 2017-ci ildə pedaqogika üzrə elmlər doktoru, akademik Hümeyir Əhmədovun ön sözü ilə başlayan "Pedaqogika və psixologiya problemləri: dissertasiya mövzuları" (Kitab ARTİ Elmi-pedaqoji kadr hazırlığı

şöbəsinin əməkdaşları, filologiya üzrə fəlsəfə doktoru, dosent Ə.P.Ə. Zeynalov, pedaqogika üzrə fəlsəfə doktoru, dosent S.H. Həsənova və filologiya üzrə fəlsəfə doktoru A.H. Nəzərova tərəfindən hazırlanmışdır), Bakı: "Vahıd-M" MMC, 2017, (189 s.); 2018-ci ildə (344 s.) AR Tİ "VAHİD-M" MMC nəşriyyatı tərəfindən "Elmi-pedaqoji və pedaqoji kadr hazırlığı problemləri" monoqrafiyasında (Abbasov A.N., Kazımov M.S. ilə birlikdə) II. Elmi-pedaqoji kadr hazırlığı üçün yol xəritəsi (H.H.Əhmədov, s. 43-280) və 2019-cu ildə "Elmi kadr hazırlığı məsələləri". Metodik vəsait-Bakı: "Mütərcim", 364 s. adlı metodik vəsait (Hümeyir Əhmədov, Əli Paşa Zeynalov, Aynur Əlimuradova, İlahə Ümidli). Şöbədə 1 elmlər doktoru, 4 fəlsəfə doktoru, 2 doktorant və dissertant fəaliyət göstərmişdir. Elmi-pedaqoji kadr hazırlığında, aspirant və dissertantların elmi hazırlıq səviyyəsinin yüksəldilməsində 1978-ci ildən başlayaraq hər il keçirilən ali məktəb aspirantlarının respublika elmi konfransları da böyük rol oynamışdır. Gənc tədqiqatçıların elmi yaradıcılıqlarının hesabatına çevrilən belə ənənəvi konfranslar elmin başqa sahələri ilə yanaşı, pedaqogikanın nəzəriyyəsi və tarixinin müxtəlif istiqamətləri və problemləri üzrə geniş elmi fikir mübadiləsinə meydan açırdı. İnstitutun aspirant (doktorant) və dissertantları həmişə həmin tədbirlərdə fəal iştirakları ilə seçilirdilər. Məsələn, şöbənin əməkdaşı, institutun pedaqoji psixologiya ixtisasından fəlsəfə doktoru proqramı üzrə əyani doktorantı Aynur Əlimuradovanın elmi məqaləsi Web of Science platformasına daxil olan "Revista Universidad y Sociedad" jurnalında nəşr olunuş (Features of the psychological and pedagogical adaptation of students1st grade to study in a comprehensive school.12/6, pp.404-410) və RF TEA-nın "За новаторскую работу в области высшего образования" qızıl medalına layiq görülüb. Son illərdə dissertasiya işini vaxtından əvvəl bitirən gənclərimiz sayı getdikcə artır.

Müəllimlərin və alimlərin diqqətini cəlb edən iş təcrübəsi qazanmış, elmi axtarışlara ciddi maraq göstərən qabaqcıl müəllimlər, məktəb rəhbərləri beş il müddətinə institutun müvafiq şöbələrinə təhkim olunur, elmi məsləhətçilərin köməyi ilə müəyyən problem üzrə tədqiqat aparır və müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edirlər. İndiyə qədər bu yolla namizədlik dissertasiyası müdafiə edənlərin sayı 1000-ni keçmişdir. İndi 100 nəfərə qədər qabaqcıl təhsil işçisi, əməkdar müəllim, təhsil müəssisəsinin rəhbəri, tərbiyəçi, elmi işçi institutun dissertantıdır.

İnstitut yarandığı vaxtdan elmi-pedaqoji fəaliyyətini əsasən iki istiqamətdə həyata keçirmişdir. Onun bir də elmi kadr hazırlığıdır. Bu baxımdan institunun yetirmələrindən ölkə tarixində özünə layiqli yer tutan alimləri diqqətə çatdırmaq yerinə düşər: mərhum professorlar Aleksand Makavelski, Boris Komorovski, Bəkir Çobanzadə, Əhməd Seyidov, Mehdi Mehdizadə, Feyzulla Qasımsadə, Əbdüləzəl Dəmirçizadə, Əhməd Kərədi Zəkuzadə, Fuad İbrahimbəyov, Abbasqulu Abbaszadə, Ağaməd Abdullayev, Məmmədli Məhərrəmov, Əliyar Qarabağlı, Əziz Əfədizadə, Camal Əhmədov, Əkbər Bayramov, Əbdül Əlizadə, Muxtar Həmzəyev, Zəkəriyyə Mehdizadə, Mirabbas Aslanov, Abren Kərimov, Bəşir Əhmədov, Əliheydər Həşimov, Yusif Talıbov, Şahin Səfərov, Əjdər Aöayev, İsa Məmmədov, Zahid Qaralov, Səməd Qasımov, Ələddin Qədirov, Abdulla Nuruşov, Nazim

Əhmədov, İbrahim Mollayev, Ağahüseyn Həsənov, Oruc Həsənli, Ziyyədin Orucov, Rəfiqə Mustafayeva Yusif Zeynalov və başqaları. Müasirlərimizdən professorlar Yəhya Kərimov, Vidadi Xəlilov, Akif Abbasov, Ramiz Əliyev, Sərdar Quliyev, Nübar Muxtarova, Fərahim Sadiqov, Oqtay Rəcəbov, İsmayıl Əliyev, Rüfət Hüseynzadə, Hikmət Əlizadə, Ağarəhim Rəhimov, Şahin Tağıyev, İntiqam Cəbrayılov, Elxan Bəylərov, Piralı Əliyev, Hümeyir Əhmədov, Dilqəm Quliyev, Akif Əliyev, Zəhra Muradova, Vidadi Orucov, Qızxanım Qəhrəmanova, Mircəfər Həsənov, Gültac Əliyeva, Nazim Kazımov, Yusif Babanlı; dosentlər Ənvər Abbasov, Bibixanım İbadova, Natiq Axundov, Asif Hacıyev, Mahirə İbadova, Səadət Həsənova, Asya Bəkirova, Əlişah Gərayev, Nailə Bədəlova, Yaşar Əliyev, Çingiz Rüstəmov, Hikmət Kazımov, Rahim Hüseynov, Vidadi Bəşirov, Afaq Sadıqova, Talıb Paşayev, Dilarə Dostuzadə, Nazim Abbasov, Məmməd Kazımov, Şükür Hüseynov, Nigar Muradova, Pərişan Həsənova, İlham Cavadov, İradə Əmrəliyeva, Hicran Şərifov, Fəridə Hüseynova, Könül Mahmudova, Lalə Məmmədli, Nərgiz Qarayeva və yüzlərlə başqaları. Bu alimlərin bir çoxu yüksək dövlət mükafatlarına-orden, medal və fəxri adlara layiq görülmüşlər.

Hazırda doktorantlarımız öz tədqiqatlarını internet vasitəsilə dünya ölkələrinə təqdim edə bilirlər. Son iki ildə onlarla doktorant və dissertant təhsil müddətindən xeyli əvvəl dissertasiyalarını tamamlayaraq Dissertasiya Şuralarına təqdim etmiş, müdafiə etmiş və diplomlarını almışlar. Təqdirə layiq haldır ki, elmi əsərlərini eyni zamanda xarici dillər vasitəsi ilə dünyanın elmi ictimaiyyətinə çatdırırlar. Doktorant və dissertantlarımız inkişaf etmiş yaxın və uzaq xarici ölkələrdə Azərbaycan elminin nailiyyətlərini-xalqın milli-mənəvi, tolerantlıq və multikultural dəyərlərini, adət-ənənələrinin bəşəri xüsusiyyətlərini şərəflə təqdim və təbliğ edirlər. Gənc tədqiqatçılarımızın elmi məqalələri dövri elmi nəşrlərin daxil olduğu beynəlxalq xülasələndirmə və indeksləşmə bazalarına aid olan mətbu orqanlarda nəşr olunurlar. Torpaqlarımızın yağı düşmənlərin işğalından azad edildiyi indiki dövrdə elmi zəfərlərə aparan şərəfli yolda tədqiqatçılarımıza yeni yaradıcılıq uğurları və əzmkarlıq diləyirik.

# Doktorant və dissertant hazırlığının alqoritmi

Alqoritm




| Alqoritm | Doktorant və Dissertantlar üçün YOL XƏRİTƏSİ | İcraçılar: Məsul İcraçı | İcraçılar: Məlumat landırılan Şəxs | Tənzimləyən sənəd | Qeydlər |
|---|---|---|---|---|---|
| | 2 | 3 | 5 | 6 | 7 |
| | 1.Doktoranturaya və dissertanturaya sənədlərin qəbulu qaydaları, qəbul planı və imtahanların keçirilmə müddəti haqqında kütləvi informasiya vasitələrində elanın verilməsi | EPKHş | İ.ə.ş | NK və TN tərəfindən təsdiq olunmuş plan | |
| | 2.Sənədlərin qəbulu və müsabiqənin keçirilməsi üçün direktorun əmri ilə qəbul komissiyasının yaradılması | EPKHş ATİS | Direktor | Əmr | |
| | 3.Doktoranturaya və dissertanturaya müraciət edənlərin sənədlərinin araşdırılması və ixtisas uyğunluğunun müəyyənləşdirilməsi | QK | EPKHş | Protokol | |
| | 4.Təqdim edilən sənədlərin əsasında qəbul komissiyasının imtahanlara buraxılmaq haqqında qərarının iddiaçılara bildirilməsi | EPKHş | İddiaçı | Protokol | |
| | 5.Müvafiq ixtisaslar üzrə imtahan komissiyalarını yaradılması | EPKHş | Şöbə müdirləri | Əmr | |
| | 6.Doktoranturaya qəbul imtahanlarının keçirilməsi və nəticələrin qəbul komissiyasına bildirilməsi | EPKHş | İddiaçı | Əmr | |
| | 7.Keçirilmiş müsabiqənin nəticələri və nəzərdə tutulan elmi rəhbərin rəyi əsasında qəbul komissiyasının qərarının EŞ bildirilməsi | EPKHş | Direktor və EŞ | İmtahan Protokol | |
| | 8.Doktoranturaya qəbul olunanlar haqqında direktor tərəfindən əmrin verilməsi və doktoranturaya istehsalatdan ayrılmaqla qəbul olunan şəxslərin əmək kitabçasında doktoranturaya qəbul olunması haqqında əmrin qeyd edilməsi və təqaüdün təyini | EPKHş, Üş, İrş və Mş | İddiaçı | Əmr | |
| | 9. İddiaçıların müvafiq elmi şöbələrə təhkim olunması, onların dissertasiya mövzusu, fərdi iş planı və elmi rəhbəri (məsləhətçisi) haqqında qərarın qəbul edilməsi | EPKHş və EŞ | EŞ | Əmr | |
| | 10. Qəbul olunan doktorant və dissertantlar haqqında məlumatların direktorluq tərəfindən Təhsil Nazirliyinə və AAK-a göndərilməsi | EPKHş və Üş | Doktorant / dissertant | Məktub | |
| | 11. Təsdiq edilmiş dissertasiya mövzularının AMEA Kordinasiya Şurası tərəfindən təsdiqinin təmin edilməsi | EPKHş | Direktor və ya Elmi katib | Məktub | |
| | 12. Doktorantlar üçün elmi şöbələr tərəfindən illik dərs proqramının hazırlanması və təsdiqlənməsi | EPKHş | Elmi katib | Fəaliyyət planı | |
| | 13. Doktorantların xarici dildən və ixtisasdan doktorluq (minimum) imtahanlarının verilməsi | EPKHş | EPKHş | DİM, İK və əmr | |
| | 14.Dissertasiyanın ilkin ekspertizası | Elmi şöbələr | Direktor | EŞ qərarı | |
| Diplom | 15.Dissertasiyanın müdafiəsi və AAK-da təsdiqi | DŞ və AAK | DŞ və Elmi katibi | Diplom | |

**1. EPKHş - Elmi-pedaqoji Kadr Hazırlığı şöbəsi**
**2. İ.ə.ş. - İctimaiyyətlə əlaqələr şöbəsi**
**3. Üş – Ümumi Şöbə**
**4. İrş – İnsan Resursları şöbəsi**
**5. Mş – Maliyyə şöbəsi**
**6. EŞ – Elmi Şura**
**7. QK – Qəbul Komissiyası**
**8. İK – İmtahan Komissiyası**
**9. TN – Təhsil Nazirliyi**
**10. DİM – Dövlət İmtahan Mərkəzi**
**11. AAK – Ali Attestasiya Komissiyası**
**12. DŞ – Dissertasiya Şurası**

**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU**

# ELMİ KADR HAZIRLIĞI MƏSƏLƏLƏRİ

**Bakı – 2022**

# ÜMUMİ MÜDDƏALAR

Azərbaycan Respublikasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsilin ən yüksək səviyyəsi olan doktorantura yolu ilə həyata keçirilir və müvafiq elmi dərəcələrin (elm sahələri göstərilməklə, fəlsəfə doktoru və elmlər doktoru) verilməsi ilə başa çatır.

## 1. Doktorantura (dissertantura) təhsilinin məzmunu və təşkili qaydaları

1.1.Bu Qaydalar dövlət standartları əsasında ali təhsilin **doktorantura səviyyəsində** təhsilin məzmunu və təşkili qaydalarını tənzimləyir. Onun hazırlanmasında aşağıdakı normativ hüquqi sənədlərə istinad edilmişdir:

-Azərbaycan Respublikasının Konstitusiyası;

-"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu;

-"Elm haqqında" Azərbaycan Respublikasının Qanunu;

-Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli, 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası" (41 nömrəli əlavə);

-Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 01 iyul tarixli, 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları";

-Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı";

-Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli, 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı".

-Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası rəyasət heyətinin 2012-ci il 13 aprel tarixli (protokol № 06-R) qərarı ilə təsdiq edilmiş və rəyasət heyətinin 2015-ci il 30 oktyabr tarixli (protokol № 13-R) qərarı ilə əlavələr edilmiş Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji işçilərə elmi dərəcələrin verilməsi üzrə ixtisasların siyahısı.

-Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə".

-Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə".

1.2.Bu Qaydalar Azərbaycan Respublikasının qanunvericiliyinə, milli və ümumbəşəri dəyərlərə və meyarlara uyğun olaraq hazırlanmış və doktorantura təhsilinin məzmun və təşkilini əks etdirən ümumi normalar məcmusudur.

1.3.Doktorantura hazırlığı ali təhsilin üçüncü səviyyəsi olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş doktorantura ixtisaslarının (proqramlarının) təsnifatına uyğun müvafiq ixtisaslar üzrə geniş profilli mütəxəssis və alim hazırlığının həyata keçirilməsini təmin edir.

1.4.Bu Qaydalar tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən və tərkibində doktorantura yaradılan bütün ali təhsil və elmi tədqiqat müəssisələrinə, elmi təşkilatlarına (bundan sonra Müəssisələr) şamil edilir və doktorantura səviyyəsində təhsilin məzmununa, ixtisaslar üzrə müvafiq təhsil proqramlarına və eləcə də təhsilalanların (bundan sonra Doktorantların) hazırlıq səviyyəsinə qoyulan tələbləri müəyyənləşdirir.

1.5.Bu Qaydalar Azərbaycan Respublikasında doktorantura təhsilinin və doktorant hazırlığının keyfiyyətinin ekspertizası və qiymətləndirilməsi üçün əsasdır.

1.6.Bu Qaydalar doktorantura hazırlığının səviyyəsinə ümumi tələblər qoymaqla, Müəssisələrdə təhsilin keyfiyyətinin yüksəldilməsinə, məsuliyyətin, eləcə də kadr hazırlığının səmərəliliyinin artırılmasına, tədris-metodiki təminatın yaxşılaşdırılmasına, Doktorantların illik attestasiyasının şəffaflığına, təhsilin keyfiyyət səviyyəsinin ölkədə qəbul olunan təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılması şərtilə respublikanın ali təhsil

sisteminin Avropa ali təhsil məkanına inteqrasiyasına və ölkəmizdə verilmiş təhsil sənədlərinin beynəlxalq təhsil məkanında tanınmasına şərait yaradır.

1.7.Bu Qaydalardan müvafiq dövlət idarəetmə orqanları, Müəssisələri, lisenziyalaşdıran və akkreditasiya edən komissiyalar, orqanlar, sifarişçilər, işəgötürənlər və digər müvafiq qurumlar da istifadə edə bilər.

1.8.Doktorantura təhsilinin əsas məqsədi ali təhsil sahəsində dövlət siyasətinə uyğun olaraq, eləcə də cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınaraq, müxtəlif elm sahələri üzrə yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanmasıdır.

1.9.Xarici ölkə vətəndaşlarının doktoranturaya qəbulu müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

## 2. Doktorluq proqramları üzrə təhsilin məzmunu və təşkili Qaydalarında istifadə edilən əsas terminlər və anlayışlar

Doktorantura təhsilinin məzmunu və təşkili Qaydalarında istifadə edilən əsas termin və anlayışlar aşağıdakı mənaları ifadə edir:

**Adyunkt**–ali hərbi təhsil müəssisələrində yaradılmış adyunkturada təhsil alan və elmi-pedaqoji fəaliyyətə hazırlaşan hərbi qulluqçu;

**Adyunktura**–ali hərbi təhsil müəssisəsində doktoranturaya bərabər tutulan yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması forması;

**Adlı təqaüd**–təhsildə uğurlu nəticələri ilə xüsusi fərqlənən, təhsil müəssisəsinin ictimai mədəni həyatında fəal iştirak edən təhsilalanların həvəsləndirilməsi üçün dövlət, hüquqi və fiziki şəxslər tərəfindən konkret şəxsin adına təsis olunan təqaüd;

**Akademik mobillik**–elmi tədqiqat işlərini yerinə yetirmək məqsədi ilə doktorantların ölkədə, həmçinin xarici ölkələrin ali təhsil müəssisələrində fəaliyyət göstərmək hüququ;

**Attestasiya**–hər bir təhsil pilləsində və səviyyəsində təhsilalanların təhsildə nəaliyyətlərinin və təhsilverənlərin fəaliyyətinin qiymətləndirilməsi proseduru;

**Avropa Kredit Transfer Sistemi (AKTS)**–təhsil proqramı ilə müəyyən olunmuş kompetensiyalara nail olmaq üçün tələbələrin (doktorantların) iş yükünü və təhsilalma trayektoriyasını müəyyənləşdirən sistemdir. Bu sistem həmçinin tələbələrin mobilliyini təmin edir və təhsil proqramlarının dövlətlərarası müqayisəsi və tanınması prosedurlarını asanlaşdırır.

**Dissertant**–dissertantlıq yolu ilə fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini yerinə yetirən şəxs;

**Dissertantura**–ali təhsil müəssisələrində, elmi və digər təşkilatlarda çalışan mütəxəssislər üçün istehsalatdan ayrılmamaqla elmi dərəcənin alınması üçün dissertasiya işinin yerinə yetirilməsini təmin edən yoldur;

**Dissertasiya**–müvafiq elmi dərəcə almaq üçün təqdim edilən elmi tədqiqat işi;

**Doktorant**–fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi almaq üçün doktoranturada təhsil alan şəxs;

**Doktorantura**–ali təhsilin ən yüksək səviyyəsi, doktorluq elmi dərəcəsinin (müvafiq elm sahələri göstərilməklə, fəlsəfə doktoru və ya elmlər doktoru) alınmasını həyata keçirən yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadr hazırlığı forması;

**Doktorantura fənn proqramı**–tədris olunan fənnin məzmununu əks etdirən dövlət sənədi;

**Doktorantura təhsil proqramı (kurikulum)**–fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə ali təhsilin doktorantura səviyyəsində təlim nəticələrini və məzmun standartlarını, tədris fənlərinin, elmi tədqiqatların, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin, elmi tədqiqat işinin və təcrübənin təşkilini, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədi;

**Dövlət attestasiyası**–Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən həyata keçirilən elmi və elmi tədqiqat işinin yekununa dair keçirən ekspertiza;

**Fəlsəfə doktoru elmi dərəcəsi**–müvafiq ixtisaslar üzrə fəlsəfə doktoru proqramını mənimsəmiş və fəlsəfə doktoru (elm sahələri göstərilməklə) elmi dərəcəsi almaq üçün dissertasiya işini müdafiə etmiş şəxslərə elm sahələri üzrə doktoranturada verilən yüksək elmi dərəcə;

**Elmlər doktoru elmi dərəcəsi**–müvafiq ixtisaslar üzrə elmlər doktoru proqramını mənimsəmiş və elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini müdafiə etmiş şəxslərə elm sahələri üzrə doktoranturada verilən ən yüksək elmi dərəcə;

**İllik Attestasiya**–Müəssisələr tərəfindən doktorantların elmi və elmi tədqiqat işlərinin illik yekunlarına dair keçirilən ekspertiza;

**Təhsil krediti**–fənnin məzmununa və həcminə uyğun olaraq, onun mənimsənilməsinə ayrılan vaxtın ölçü vahidi;

**Transkript (Vəsiqə)**–Müəssisələr tərəfindən hər bir doktorantın (dissertantın) müvafiq təhsil proqramı üzrə ayrı-ayrı semestrlər və fənlər üzrə qiymətləndirilməsini əks etdirən sənəd;

**Standart**–Təhsilin məzmunu özündə əks etdirən dölət sənədi.

## 3. Doktorluq proqramları üzrə təhsilin infrastrukturu

3.1.Azərbaycan Respublikasında doktorantura təhsili Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Müəssisələrdə yaradılan doktoranturalarda (hərbi təhsil müəssisələrində adyunktura-da) həyata keçirilir. Doktoranturaların yaradılması, təşkili və yenidən təşkili mövcud qanunvericiliklə tənzimlənir.

3.2.Ali təhsillin doktorantura səviyyəsində bu Qaydalara uyğun olaraq, doktorantura təhsilinin məzmununu və mənimsəmə qaydalarını müəyyən edən fəlsəfə doktoru və elmlər doktoru təhsil proqramları tətbiq edilir.

3.3.Doktoranturada aşağıdakı təhsilalma formaları müəyyən edilir:

- əyani;
- qiyabi.

Doktorantura təhsilini həyata keçirən Müəssisələr tərəfindən elmi və elmi-pedaqoji kadr hazırlığı dissertantlıq (dissertantura) yolu ilə də reallaşdırılır.

Bu formalar üzrə təhsilalma qaydaları müvafiq qanunvericilik aktları ilə müəyyənləşdirilir.

3.4.Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsilin normativ müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 ildir.

Elmlər doktoru proqramı üzrə doktoranturada əyani təhsilin normativ müddəti 4 il, qiyabi 5 il, dissertantlıq yolu ilə 5 ildir.

Müstəsna hallarda bütün təhsil formaları üzrə təhsil müddəti müvafiq qanunvericiliyə uyğun olaraq uzadıla bilər.

3.5.Doktoranturada təhsil dövlət hesabına və ödənişli əsaslarla həyata keçirilir.

3.6.Ali təhsil pilləsinin doktorantura səviyyəsi üzrə təhsil fəlsəfə doktoru və elmlər doktoru təhsil proqramları (kurikulumlar) əsasında təşkil olunur.

3.7.Fəlsəfə doktoru proqramı üzrə əyani, qiyabi doktoranturaya qəbul olunmuş və ya dissertanturaya təhkim olunmuş şəxslərə müəssisə və ya təşkilatın elmi şuralarının təqdimatı əsasında və ayrı-ayrı sahələr üzrə fəaliyyət göstərən Respublika Pedaqogika üzrə elmi şurası (PEŞ) tərəfindən təsdiq olunaraq "Yekun Əlaqələndirmə Planı"na daxil edilmiş mövzular verilir. Doktorantlara (və ya dissertantlara) elmi rəhbər(lər)in təyinatı Müəssisələrin rəhbərləri ilə elmi rəhbər(lər) və arasında müvafiq olaraq göstərilmiş forma üzrə Razılıq sənədi və Müqavilənin imzalanması ilə başa çatır. (1 və 2 nömrəli əlavələr)

3.8.Elmlər doktoru proqramı üzrə əyani, qiyabi doktoranturaya qəbul olunmuş və ya dissertanturaya təhkim olunmuş şəxslərə Müəssisələrin elmi şuralarının təqdimatı əsasında və ayrı-ayrı sahələr üzrə fəaliyyət göstərən Respublika Pedaqogika üzrə elmi şurası (PEŞ) tərəfindən təsdiq olunaraq "Yekun Əlaqələndirmə Planı"na daxil edilmiş mövzular verilir. Doktoranta elmi məsləhətçinin(lərin) təyinatı müvafiq forma üzrə razılıq sənədi imzalanır (4 nömrəli əlavə).

3.9.Yuxarıda qeyd olunan 3.7 və 3.8. maddələrində göstərilən Razılıq sənədində gələcəkdə baş verə biləcək hər hansı dəyişikliklər müvafiq tərəflə razılaşdırıldıqdan sonra rəsmiləşdirilir. Doktorant və dissertantlar fəaliyyətlərini Fərdi iş planı əsasında aparırlar (10 və 11 nömrəli əlavələr).

3.10.Doktorantura təhsil proqramları aidiyyəti üzrə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və ya AMEA-nın Rəyasət Heyəti tərəfindən təsdiq edilir.

Fəlsəfə doktoru təhsil proqramlarının ixtisasları üzrə fənn proqramları hazırlanır və Müəssisələrin elmi şuraları tərəfindən təsdiq edilir.

Elmlər doktoru təhsil proqramına yalnız tədqiqat işi və onunla bağlı prosedurlar daxil edilir.

3.11.Doktoranturaya illik qəbul və dissertantların təhkim olunma planları Müəssisələrin sifarişi əsasında onların tabe olduqları nazirlik və təşkilat tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunur, Azərbaycan Milli Elmlər Akademiyasının və Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəyləri əsasında təsdiq edilir.

3.12.Müəssisələrin tərkibində yaradılan doktoranturalara elmi-metodik rəhbərliyi və fəaliyyətlərinə nəzarəti onların tabe olduqları nazirlik və təşkilat həyata keçirir.

3.13.Doktorantura təhsil proqramını mənimsəyən və dissertasiyalara verilən tələbləri yerinə yetirən şəxslərə müvafiq elmi dərəcə almaq üçün dissertasiya işini müdafiə etməyə icazə verilir.

3.14.Doktorantura təhsil proqramını vaxtından əvvəl mənimsəyərək dissertasiya işini dissertasiya şurasına təqdim etmiş şəxslərə növbədənkənar müdafiə etmək hüququ verilə bilər.

3.15.Hər bir şəxs doktoranturada (və ya dissertanturada) dövlət hesabına yalnız bir dəfə təhsil ala bilər.

## 4. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin doktoranturada və dissertantlıq yolu ilə təhsil almaq hüququ

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin doktoranturada və dissertantlıq yolu ilə təhsili Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq hüquqi və fiziki şəxslərin birbaşa bağladıqları müqavilələr əsasında həyata keçirilir. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin doktoranturada və dissertantlıq yolu ilə təhsili ödənişli əsaslarla aparılır. İllik təhsil haqqı təhsilin xüsusiyyətlərinə uyğun olaraq ali təhsil müəssisələrinin və elmi təşkilatların tabe olduqları qurumlar və ya onların özlərinin elmi şuraları tərəfindən müəyyən edilir. Müstəsna hallarda ali təhsil müəssisələri və elmi təşkilatlar tabe olduqları qurumların razılığı əsasında ödənişsiz qəbul həyata keçirə bilərlər. Xarici dövlətlərdə təhsil almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün ali təhsil haqqında diplomun notarial qaydada təsdiq edilmiş surəti və diplomun tanınması haqqında şəhadətnamə təqdim edilməlidir. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ali təhsil müəssisələrində və elmi təşkilatlarda doktoranturaya qəbulu və dissertanturaya təhkim olunması, eyni zamanda təhsili bu qaydalara və qüvvədə olan qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

## 5. Doktorantura səviyyəsində təhsilin məzmununa və tədris prosesinin təşkilinə qoyulan tələblər

5.1.Doktorantura–ali təhsilin üçüncü səviyyəsinin tələblərinə uyğun olaraq genişprofilli mütəxəssis hazırlığını təmin edən təhsil prosesidir. Azərbaycan Respublikasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsilin ən yüksək səviyyəsi olan doktoranturada (ali hərbi təhsil müəssisələrində-adyunkturada) həyata keçirilir və müvafiq elmi dərəcələrin (elm sahələri göstərilməklə, fəlsəfə doktoru və elmlər doktoru) verilməsi ilə başa çatır.

5.2.Doktorantura təhsilinin məzmunu tədris prosesinin planlaşdırılmasını, onun həyata keçirilməsinin forma və metodlarını, tədris yükünün həcmini, tədris mərhələlərinin (semestrlərin) müddətini, tədris növlərini (mühazirə, məşğələ, laboratoriya və s.), ayrı-ayrı fənlərin həcmini, ixtisaslar üzrə təhsil proqramlarına qoyulan tələbləri əhatə edir.

Tədris prosesinin planlaşdırılması və təşkili fərdi iş planları üzrə keçirilir (10 və 11 nömrəli əlavə). Fənn proqramları ixtisaslar üzrə Müəssisələr tərəfindən hazırlanır və müvafiq qaydada Azərbaycan Respublikasının Təhsil Nazirliyi və ya Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən təsdiq

edilir. Müəssisələr tərəfindən fənn proqramları əsasında işçi proqramlar (sillabuslar) hazırlanır və təsdiq edilir.

İşçi tədris proqramı (sillabus)–fənnin müvafiq proqramı əsasında hazırlanan və özündə tədris olunan fənnin təsvirini, onun hədəf və məqsədini, qısa məzmununu, dərslərin müddətini və növlərini, doktorantın müstəqil işi üçün tapşırıqları, onları yerinə yetirilməsi müddətini, məsləhət saatlarını, müəllim haqqında məlumatı, müəllimin tələblərini, qiymətləndirmə meyarlarını, qiymətləndirilmə cədvəlini, istifadə olunan ədəbiyyatın siyahısını özündə əks etdirən sənəddir.

5.3.Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan, tibbi təhsildə isə rezidenturanı və ya ona bərabər tutulan səviyyəni bitirən) şəxslər müsabiqə əsasında qəbul edilir.

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan şəxslər qəbul edilir.

5.4.Doktorantura təhsilinin əsas komponentləri aşağıdakılardır:

- orijinal tədqiqat vasitəsilə biliklərin artırılması;
- doktorant hazırlığının əmək bazarının tələblərinə cavab verməsi və akademik təhsildən daha geniş olması;
- müəssisələr tərəfindən təhsilin keyfiyyətinə zəmanətin verilməsi;

-doktorantura təhsil proqramlarının müxtəlifliyinin və elm-təhsil-təcrübə arasındakı qarşılıqlı əlaqə və vəhdətin təmin edilməsi;

-yeni biliklərin yaradıcısı olan doktorantların hüquqlarının müəyyən edilməsi;

-doktorantlara təklif olunan mövzuların, onlarla bağlanılan müqavilələrin və onların işinin qiymətləndirilməsinin şəffaflıq əsasında həyata keçirilməsi;

-doktorantura təhsil proqramlarının müxtəlif innovativ təcrübələrə əsaslanması və həmin proqramlarda müxtəlif ali təhsil müəssisələri və elmi təşkilatlar arasında (o cümlədən beynəlxalq) əmək-daşlığın nəzərdə tutulması;

-doktorantura təhsil proqramlarının müəyyən edilmiş vaxt çərçivəsində (üç ildən beş ilə qədər) fəaliyyət göstərməsi;

-doktorantura təhsil proqramlarında doktorantların akademik mobilliyinin nəzərdə tutulması.

5.5.Doktoranturalarda tədris dili dövlət dili - Azərbaycan dilidir. Müəssisələrin imkanları nəzərə alınaraq, təhsil alanların arzuları əsasında təlim xarici dillərdə (rus, ingilis, türk) də aparıla bilər.

5.6.Doktorantura səviyyəsində tədrisin təşkili ali təhsil pilləsinin dövlət standartının tələblərinə uyğun Azərbaycan Milli Elmlər Akademiyasının və ya Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş Qaydalara uyğun olaraq həyata keçirilir.

5.7.Ali təhsilin doktorantura səviyyəsində təhsilin məzmununu və mənimsəmə qaydalarını müəyyən edən fəlsəfə doktoru və elmlər doktoru təhsil proqramları (kurikulum) tətbiq edilir.

5.8.**Fəlsəfə doktoru** təhsil proqramı ali təhsilin doktorantura səviyyəsində fəlsəfə doktoru hazırlığının məzmununu, tədris fənlərinə, dərs və dərsdənkənar məşğələlərə, istehsalat (pedaqoji) təcrübə-sinin təşkilinə, elmi tədqiqatların yerinə yetirilməsinə və dissertasiyanın hazırlanmasına ayrılan vaxt normalarını, eləcə də təlim prosesinin, elmi tədqiqat işinin və təcrübənin təşkilini, doktorantura təhsilinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədidir.

5.9.İcbari fənlərə elmi ixtisasın nəzəri və metodoloji (tədqiqat metodları və metodologiya) aspektləri, informatika və xarici dil fənləri daxildir.

5.10.Əlavə fənlərə ümumelmi fənn (doktoranturada seçilmiş elmi ixtisasın baza təhsilinə uyğun gəlmədikdə) və təhsil formasından asılı olaraq fəlsəfə, Azərbaycan dili fənləri daxildir.

5.11.Elmi tədqiqat işinin yerinə yetirilməsinin qiymətləndirilməsi və attestasiya Müəssisələr tərəfindən ildə bir dəfə təhsilalanın təsdiq edilmiş fərdi iş planına uyğun olaraq həyata keçirilir.

5.12.Bu Qaydaların tələblərini yerinə yetirən (dissertasiya işinin müdafiəsi istisna olmaqla) fəlsəfə doktoru təhsil proqramı üzrə təhsil alan doktorantlara Müəssisə tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi formada vahid nümunəli arayış verilir (16 nömrəli əlavə).

5.13.Dövlət attestasiyası Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən həyata keçirilir.

5.14.Bütün fənlər müvafiq təhsil proqramlarına daxil edilir və doktorantların fərdi iş planında əks olunur (10 və 11 nömrəli əlavə).

5.15.**Elmlər doktoru** təhsil proqramı ali təhsilin doktorantura səviyyəsində elmlər doktoru hazırlığının məzmununu, təhsil alan şəxslərin elmi tədqiqat işinə, istehsalat (pedaqoji) təcrübəsinin təşkilinə və dissertasiyasının hazırlanmasına ayrılan vaxt normalarını, eləcə də elmi tədqiqat işinin və təcrübənin təşkili, qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədidir.

5.16. Bu Qaydaların tələblərini yerinə yetirən (dissertasiya işinin müdafiəsi istisna olmaqla) elmlər doktoru təhsil proqramı üzrə təhsil alan doktorantlara Müəssisə tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi formada vahid nümunəli arayış verilir (16 nömrəli əlavə).

5.17. Doktorantura təhsil proqramları Müəssisələr tərəfindən hazırlanır və onların tabe olduqları nazirlik, təşkilat və qurumlar tərəfindən təsdiq edilir.

5.18. Doktorantura təhsil proqramlarına aşağıdakılar daxildir:

-doktorantura səviyyəsində ayrı-ayrı ixtisaslar üzrə təhsilin məzmunu;

-fənlərin öyrənilməsinə ayrılan vaxt;

-təcrübə prosesinin təşkilinə ayrılan vaxt;

-elmi tədqiqat işinin aparılmasına və dissertasiya işinin hazırlanmasına ayrılan vaxt;

-doktorantura təhsilinin nəticələrinin qiymətləndirilməsi.

5.19.Doktorantura səviyyəsində tədris olunan fənlərin proqramları Müəssisələr tərəfindən hazırlanır və təsdiq edilir.

5.20.Doktorantura səviyyəsində tədris olunan fənlərin proqramlarının strukturuna aşağıdakılar daxildir:

-ümumi müddəalar;

-ayrı-ayrı ixtisaslar üzrə tədris olunan fənnin məzmunu;

-məzunların ixtisas kompetensiyaları və səriştəliliyi;

-təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər;

-maddi-texniki, tədris bazası və kadr potensialına verilən tələblər;

-tədrisin təşkilinin forma və metodları;

-elmi tədqiqat işinin və təcrübənin təşkili;

-attestasiyasının meyarları;

-müvafiq fənn üzrə doktorantura təhsilinin qiymətləndirilməsi.

5.21.Doktorantların tədris yükünün ümumi həcmi və normaları aşağıdakı kimi müəyyənləşdirilir:

5.22.Doktorantura səviyyəsində tədris işinin aşağıdakı növləri müəyyənləşdirilir:

-mühazirə;

-seminar;

-laboratoriya işi;

-məsləhət;

-sərbəst iş;

-təcrübə (elmi tədqiqat, pedaqoji, arxeoloji, çöl, istehsalat və s.);

-elmi məqalələr, məruzə, tezisin yazılması;

-doktorluq dissertasiyasının hazırlanması.

5.23.Mühazirələr elmlər doktoru və ya fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi olan professor, yaxud dosentlər tərəfindən aparılır. Mühazirələrin aparılmasına uzunmüddətli iş təcrübəsi və biliyi olan digər mütəxəssislərdə cəlb oluna bilər.

5.24.İmtahan sessiyalarının təşkili, təhsilalanların biliyinin və yekun qiymətləndirilməsi qaydaları səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və ya Azərbaycan Milli Elmlər Akademiyası və Müəssisələr tərəfindən müəyyənləşdirilir.

5.25.Doktorantura təhsil proqramları təhsilalanlar tərəfindən müvafiq elmi dərəcə almaq üçün dissertasiyaların hazırlanması, ilkin ekspertizası, müdafiəyə təqdim olunması və müdafiəsi ilə yekunlaşır. Dissertasiyanın hazırlanması, ilkin ekspertizası, müdafiəyə təqdim olunması və müdafiəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalar əsasında həyata keçirilir.

5.26.Doktorantura təhsil proqramını tam mənimsəyən və müvafiq dissertasiya işini müdafiə edən doktorantlara (dissertantlara) Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Müəssisələrdə yaratdığı dissertasiya şuralarında doktorluq dissertasiyasının müdafiəsindən sonra dissertasiya şurasının vəsadəti əsasında uyğun elm sahəsi üzrə elmi dərəcəni təsdiq edən dövlət nümunəli diplom Komissiya tərəfindən verilir.

## 6. Doktorluq proqramları üzrə təhsilin idarə olunması

6.1.Doktorantura təhsili Müəssisələr tərəfindən aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsasında "Təhsil haqqında", "Elm haqqında" Azərbaycan Respublikasının Qanunlarına, digər normativ hüquqi aktlara və Müəssisələrin nizamnaməsinə uyğun həyata keçirilir.

6.2.Müəssisələr doktorantların elmi fəaliyyətini tənzimləyir və tədrisini təşkil edir, onların cari fəaliyyətinə ümumi nəzarəti həyata keçirir və onların təhsilinin keyfiyyətinə görə məsuliyyət daşıyır.

6.3.Müəssisələr doktorantlar arasında sağlam rəqabət mühitinin yaradılması və onların səmərəli elmi fəaliyyətinin stimullaşdırılması məqsədilə qrant proqramları və əlavə təqaüdlər təsis edə bilərlər.

6.4.Doktorantların təhsil aldığı müvafiq proqram və fənlər üzrə əldə etdiyi müvəffəqiyyətlər (dissertasiya müdafiəsi istisna olmaqla) Transkriptdə (Vəsiqə) öz əksini tapır (16 nömrəli əlavə).

6.5.Doktorantların elmi işinin yerinə yetirilməsinə və tədrisinə cari nəzarət onların elmi rəhbəri və müvafiq şöbə (kafedra) tərəfindən həyata keçirilir.

6.6.Dövlət hesabına əyani təhsil alan doktorantlara qanunvericiliklə müəyyən olunmuş təqaüd ödənilir və hər il məzuniyyət verilir. Fərdi iş planını müvəffəqiyyətlə yerinə yetirən doktorantlara müxtəlif adlı təqaüdlər və ya müəssisələrin daxili imkanları hesabına əlavə ödənişlər təyin oluna bilər (31 nömrəli əlavə).

6.7.Hər tədris ilinin yekununda Müəssisələr tərəfindən doktorant və ya dissertantların uyğun şəkildə illik attestasiyası keçirilir. Attestasiya zamanı elmi rəhbərin, müvafiq şöbənin (kafedranın) rəyi nəzərə alınır (13, 14 və 15 nömrəli əlavələr). Attestasiyadan keçməyən doktorantlar (dissertantlar) doktoranturadan (dissertanturadan) xaric edilirlər (41 nömrəli əlavə).

6.8.Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq fəlsəfə doktoru elmi dərəcə almaq üçün iddiaçı dissertasiyasının nəticələrinə dair ikisi həmmüəllifsiz olmaqla, beş, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan dövrü elmi nəşrlərdə humanitar və ictimai elmlər üzrə ən azı bir məqalə dərc etməlidir. Elmlər doktoru elmi dərəcə almaq üçün iddiaçı dissertasiyasının nəticələrinə dair humanitar və ictimai elmlər üzrə beşi həmmüəllifsiz olmaqla, ən azı on beş, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan dövrü elmi nəşrlərdə azı üç məqalə dərc etməlidir. Eyni zamanda Komissiyaya təqdim edilən dissertasiyaların xarici dildə dərc olunmuş əsas elmi nəticələrinin Azərbaycan dilində xülasəsi dərc edilmiş nəticələrin 20 faizindən az olmamalıdır (42 nömrəli əlavə).

## 7. Maddi-texniki, tədris bazası və kadr potensialı

7.1.Doktorluq hazırlığı həyata keçirən Müəssisələr müvafiq elmi potensiala, maddi-texniki bazaya (humanitar profilli sahələr üçün kitabxana, xüsusi fond, arxiv və s.), İnternet və digər informasiya resurslarına malik olmalıdır.

7.2.Müəssisələrin elmi potensialı, maddi-texniki bazası və təhsil infrastrukturu Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən normativlərə uyğun olmalıdır.

7.3.**Doktorantura üzrə** təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların müəssisənin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, müxtəlif elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.4.Fənlərin tədrisi, bir qayda olaraq, müəssisələrinin elmi dərəcəsi və elmi adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər cəlb oluna bilər.

7.5.Doktorantların dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq elmlər doktoru və ya fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslər tərəfindən həyata keçirilir.

## 8. Doktorluq proqramları üzrə təhsilin idarə olunması və elmi rəhbərlərin (və ya məsləhətçilərin) keyfiyyət göstəriciləri

8.1.Elmi rəhbərlərin (və ya məsləhətçilərin) keyfiyyət göstəricilərinə aşağıdakılar daxildir:

- öz fəaliyyətlərində innovativ təlim, informasiya-telekommunikasiya, müasir texnika, yeni istehsal və pedaqoji texnologiyalarından istifadə etmək;

-müvafiq elmi dərəcəyə malik olmaq;

-müasir səviyyədə elmi tədqiqat işini yerinə yetirməyi bacarmaq;

-mütəmadi olaraq öz elmi səviyyəsini, bilik və bacarıqlarını artırmaq;

-fundamental tədqiqatların səviyyəsi və prioritet istiqamətləri üzrə əldə olunmuş son nailiyyətlər haqqında məlumatlı olmaq;

-xarici elmi qurumlarla əməkdaşlıq etmək;

-respublika və beynəlxalq səviyyəli konfranslarda iştirak etmək.

-doktorantlara (və ya dissertantlara) elmi iş üzrə məsləhətlər vermək, onların təsdiq edilmiş fərdi iş planına (təhsil proqramına) uyğun fəaliyyətinə rəhbərlik etmək və dissertasiya işinin keyfiyyətlə yerinə yetirilməsinə nəzarət etmək (7 nömrəli əlavə).

8.2.Bir elmi rəhbərə təhkim olunan fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantların (dissertantların) sayı 5 nəfərdən artıq olmamaq şərtilə, ali təhsil müəssisəsi və elmi təşkilatların elmi şuraları tərəfindən müəyyən olunur və ali təhsil müəssisələrinin və ya elmi təşkilatların fəaliyyətini tənzimləyən Nizamnaməyə (Əsasnaməyə) uyğun olaraq rəsmiləşdirilir.

8.3.Hər bir Müəssisə tərəfindən təyin olunmuş elmi rəhbərə saathesabı ödəniş haqları həmin Müəssisə və ya təşkilatın xərclər smetasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilir.

8.4.Doktorantura təhsil proqramları üzrə əyani təhsil alan doktorantların elmi rəhbərlərinə hər tədris ili üçün 50 saat, qiyabi təhsil alan doktorantların elmi rəhbərlərinə 50 saat, dissertantların elmi rəhbərlərinə isə hər tədris ili üçün 25 saat həcmində vaxt normaları müəyyən edilir.

Doktorantura təhsil proqramları üzrə əyani təhsil alan əcnəbi doktorantların elmi rəhbərlərinə hər tədris ili üçün 100 saat, qiyabi təhsil alan doktorantların elmi rəhbərlərinə isə 100 saat, əcnəbi dissertantların elmi rəhbərlərinə hər tədris ili üçün 50 saat həcmində vaxt normaları müəyyən edilir.

Bir təhsilalana 2 elmi rəhbər (elmi rəhbər və elmi məsləhətçi) təyin edildikdə, həmin saatlar onlar arasında bölünür.

## 9. Doktorantların (və ya dissertantların) bilik, bacarıq, vərdişlərinin səviyyəsi və qiymətləndirilməsi

9.1.Doktorantların bilik, bacarıq və vərdişlərinin səviyyəsi kompetensiyalar vasitəsilə ifadə olunur və beynəlxalq təcrübəyə uyğun olaraq doktorantlar tərəfindən ümumi və xüsusi bacarıq (qabiliyyət) və vərdişlərin əldə edilməsini ehtiva edir.

9.2.Doktorantların kompetensiyalarına aşağıdakılar daxildir:

**Bilmək və anlamaq:**

-elmin müasir tendensiyalarını və qanunauyğunluqlarını;

-elmi idrakın metodologiyasını;

-müvafiq sahə üzrə dünya və Azərbaycan elminin nailiyyətlərini;

-elm və təhsilin sosial məsuliyyətini;

-elmi əlaqələrin və beynəlxalq əməkdaşlığın təmin edilməsini;

-alim-tədqiqatçının elmi etikasını.

**Bacarmaq:**

-elmi tədqiqat prosesini planlaşdırmaq və həyata keçirmək;

-tədqiqat sahəsində elmi nəzəriyyələri və konsepsiyaları (ideyaları) tənqidi təhlil etmək və qiymətləndirmək, müqayisə etmək və nəticə çıxarmaq;

-müasir nəzəriyyələr və təhlil üsulları əsasında müstəqil elmi tədqiqatlar aparmaq;

-yeni ideyalar vermək, öz bilik və ideyalarını elmi ictimaiyyətə ötürməklə elmi idrakın sərhədlərini genişləndirmək;

-müasir tədqiqat metodları və metodologiyasından istifadə etmək;

-tədqiqat nəticələrini ümumiləşdirmək, nəşr etdirmək, məruzə və tezislər hazırlamaq.

**Vərdişlərə malik olmaq:**

-analitik və eksperimental elmi fəaliyyəti həyata keçirmək;

-respublika və beynəlxalq səviyyəli elmi məclislərdə və layihələrdə iştirak etmək;

-elmi yazışma aparmaq;

-tədqiqat (bilik) sahəsini sistemli başa düşmək, seçilmiş elmi metodun keyfiyyətliliyini və nəticəyönlülüyünü nümayiş etdirmək;

-patent axtarışı aparmaq, müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə elmi məlumatları toplamaq, emal etmək və ötürmək təcrübəsinə malik olmaq;

-elmi tədqiqat işinin nəticələrini təcrübəyə tətbiq etmək;

-yeni bilikləri əldə etmək, elmi ixtiralara (kəşflərə) və tədqiqatlara dair intellektual və müəlliflik hüquqlarını qorumaq;

-xarici dillərdə müstəqil ünsiyyət yaratmaq.

9.3.Təhsilalanların elmi tədqiqat işi:

-dissertasiya işinə və müvafiq ixtisasın əsas problematikasına uyğun olmalı;

-aktual məsələlərə, elmi yeniliyə və praktiki əhəmiyyətə malik olmalı;

-elm, texnika və istehsalatın müasir nəzəri, metodiki və texnoloji nailiyyətlərinə əsaslanmalı;

-məlumatlar, kompüter texnologiyaları da daxil olmaqla, müasir metodlarla işlənilməli;

-elmi-tədqiqat işi konkret praktik və kompleks məsələlərin müstəqil həllinə yönəlməlidir.

9.4.Doktorantlar təhsil proqramlarına uyğun olaraq istehsalat (elmi tədqiqat) və pedaqoji təcrübə keçirlər. Təcrübəyə verilən tələblər:

-doktorantların elmi və peşə fəaliyyətində praktiki vərdişlərin formalaşmasına xidmət edən təcrübi iş, dissertasiyanın eksperiment hissəsini əhatə edir və tərkibində doktorantura yaradılmış Müəssisədə, yaxud həmin Müəssisə tərəfindən seçilib tövsiyə edilən digər elmi təşkilatda yerinə yetirilir;

-istehsalat (elmi tədqiqat) təcrübəsi elmin yeni nəzəri, metodoloji və texnoloji nailiyyətləri ilə doktorantların tanış olması, praktiki vərdişlərin əldə edilməsi, dissertasiya mövzusu üzrə aparılan tədqiqatlarda alınan təcrübi nəticələrin işlənilməsi və istehsalatın tələblərinə uyğunlaşdırılması, tədris prosesində əldə edilən nəzəri biliklərin möhkəmləndirilməsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədi ilə aparılır;

-pedaqoji təcrübə doktorantlarda pedaqoji peşəyə və pedaqoji səriştəliyə olan meyil və marağı möhkəmləndirmək, onları yeni pedaqoji texnologiyalar və metodlarla tanış etmək, yaradıcılıq, təşkilatçılıq və kommunikativ vərdişlər aşılamaq məqsədini daşıyır.

9.5.Təcrübə növləri müvafiq təhsil proqramına uyğun həyata keçirilir və doktorantların fərdi iş planında müddəti göstərilməklə əks olunur ( 10 və 11 nömrəli əlavə).

Zəruri hallarda doktorantlar istehsalat (elmi tədqiqat) təcrübəsi keçirmək üçün Müəssisələr tərəfindən aparıcı elmi (o cümlədən, xarici ölkələrdəki) mərkəzlərə ezam olunurlar. Ezamiyyə xərcləri Müəssisələrin büdcəsində bu məqsədlə nəzərdə tutulan vəsait hesabına ödənilir.

9.6.Fərdi iş planına (10 və 11 nömrəli əlavələr) uyğun olaraq hər bir mərhələnin və hər ilin sonunda doktorantlar tərəfindən yerinə yetirilən nəzəri və təcrübi tədqiqatların nəticələri barədə qısa hesabat hazırlanır, müvafiq şöbədə (kafedrada) müzakirə edilir və attestasiya (13, 14 və 15 nömrəli əlavə) zamanı nəzərə alınır.

9.7.Doktorantların (dissertantların) elmi tədqiqat işlərinin son nəticəsi fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi almaq üçün hazırlanan dissertasiya işidir.

Dissertasiya işinə daxil edilən elmi nəticələr aprobasiya olunur və elmi nəşrlərdə dərc edilir.

Dissertasiya işlərinə verilən tələblər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyənləşdirilir.

9.8.Doktorantların bilik, bacarıq və vərdişlərinin səviyyəsinə verilən tələblər doktoranturada (adyunktura) və dissertantlıq yolu ilə dissertasiya işini hazırlayan şəxslərə şamil olunur.

9.9.Doktorantların bilik, bacarıq və vərdişlərinin səviyyəsi attestasiya yolu ilə qiymətləndirilir (13, 14 və 15 nömrəli əlavələr).

Doktorantların biliyinin qiymətləndirilməsinin əsas məqsədi doktorantura təhsilinin keyfiyyətinə nəzarətə və onun yüksəldilməsinə xidmət edir.

9.10.Doktorantların biliyinin qiymətləndirilməsi zamanı aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

-qiymətləndirmə meyarlarının ölçülən və etibarlı olması;

-qiymətləndirmədə müxtəlif metod və vasitələrdən istifadə olunması;

-qiymətləndirmədə ədalətlilik, obyektivlik, şəffaflıq prinsiplərinin təmin olunması və verilən qiymətin əsaslandırılması;

-qiymətləndirmə prosesində doktorantların özünüqiymətləndirmə bacarığının formalaşması, onlarda öz bilik və bacarıqlarını yaxşılaşdırmaq və öz təhsilinin keyfiyyətini yüksəltmək istəyinin yaradılması (12 nömrəli əlavə).

9.11.Təhsil proqramlarına daxil olan ayrı-ayrı fənlər üzrə doktorantların mənimsəmə səviyyəsi və təhsilin keyfiyyəti müvafiq icra orqanı tərəfindən təsdiq edilmiş qaydalar əsasında attestasiyası zamanı müəyyənləşdirilir (12, 13, 14 və15 nömrəli əlavələr).

## 10. Doktorantın ixtisas kompetensiyası

10.1.Doktorant nəzəri prinsip, tədqiqat metodları haqqında geniş təsvirə və biliyə malik olmalı, peşə hazırlığı tələb edən elmi-tədqiqat işi aparmağa, pedaqoji fəaliyyətə hazır olmalı, peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyi bacarmalıdır

10.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.

10.2.1Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜMK**) yiyələnməlidir:

- özünün intellektual, ümummədəni və peşə hazırlığı səviyyəsini təkmilləşdirib inkişaf etdirmək **(ÜMK-1);**
- elmi natiqlik vərdişlərinə yiyələnmək **(ÜMK-2);**
- digər sahələrin mütəxəssisləri, elmi nümayəndələri ilə ünsiyyət qurmaq **(ÜMK-3);**
- işgüzarlıq, peşəkarlıq, ünsiyyət vasitəsi kimi Azərbaycan və xarici dillərdən sərbəst istifadə etmək **(ÜMK-4);**
- təşkilati-idarəetmə qərarlarını qəbul edib, onun nəticələrini müəyyənləşdirmək və buna görə məsuliyyət daşımaq **(ÜMK-5);**

- müasir proqram təminatlarından elmi-tədqiqatların həllində istifadə etmək **(ÜMK-6);**

10.3. Doktorant aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

***Elmi-tədqiqat sahəsi üzrə:***

- Dövlət, bələdiyyə və özəl təhsil təşkilatları ilə əlaqədar analitik iş metodlarına malik olmaq **(PK-1);**

-elmi-tədqiqatların aparılmasının işçi plan və proqramlarının işlənilməsini həyata keçirmək, tədqiqatlar qrupu və fərdi icraçılar üçün tövsiyələr hazırlamaq **(PK-2);**

-ixtisası üzrə tədqiqatların aparılma mexanizminin işlənib həyata keçirilməsi, onların nəticlərinin həllini tələb edib, hesabatlarının hazırlanması üçün məlumatları hazırlamaq **(PK-3);**

-tədqiqat mövzusu üzrə məlumatların toplanması, işlənməsi və sistemləşdirilməsini həyata keçirmək, tədqiqatın metodunu və məsələlərin həlli vasitələrini müəyyən etmək **(PK-4);**

-ixtisası üzrə təhsil prosesləri və müəssisələrinin nəzəri və praktiki modellərini işləyib həyata keçirmək qabiliyyəti **(PK-5);**

-sahələr üzrə tədqiq olunan proses və obyektlərin nəzəri və yeni modellərini işləyib hazırlamaq **(PK-6);**

-tədqiqat sahəsi üzrə aktual elmi problemləri aşkar edib tədqiqat aparmaq **(PK-7);**

-innovasiyanın səmərəli təminatı istiqamətlərini müəyyənləşdirib tədqiqat aparmaq **(PK-8);**

-risklərin idarə edilməsi sisteminin işlənib hazırlanması məqsədi ilə təhsil subyektlərinin fəaliyyətində risklərin aşkar edilməsi və təhlilini aparmaq **(PK-9);**

***Pedaqoji fəaliyyət üzrə:***

-təhsil müəssisələrində ixtisası üzrə fənn tədris etmək **(PK-10);**

-təhsil proqramları və tədris-metodiki vəsaitləri işləyib hazırlamaq **(PK-11);**

-təlim, tərbiyə və təhsil sahəsində öz biliklərini başqasına ötürə bilmək **(PK-12);**

***Təşkilati inzibatçılıq fəaliyyəti üzrə:***

-təhsil müəssisələrinin inkişafının qısa və uzunmüddətli inkişaf siyasətinin və strategiyasının işlənib hazırlanmasına rəhbərlik etmək **(PK-12);**

-müxtəlif təşkilat hüquqi formalı təşkilatların strateji bölmələrinə elmi-metodiki tövsiyələr vermək **(PK-13);**

-hazırlanmış və təsdiq edilmiş büdcənin səmərəli icrası işini təşkil etmək **(PK-14);**

-qanunvericiliyin tələblərinə riayət edilməsi, qanunvericiliyin pozulması halları ilə barışmamaq və müvafiq inzibati tədbirlər görmək **(PK-15);**

- elmi-metodiki fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etmək **(PK-16);**
- **müvafiq fəaliyyət metodları təklif etmək və planlaşdırmaq, onların qısa və uzunmüddətli nəticələrini təhlil etmək (PK-17);**
- **təhsil sahəsi ilə bağlı problemləri yaradıcı şəkildə müəyyənləşdirmək və ortaya qoya bilmək, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək (PK-18);**
- **təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək, onlardan istifadə edə bilmək, həmçinin potensial nəticələri müəyyənləşdirmək və ya qiymətləndirə bilmək (PK-19);**
- **təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı şəxsi davranışlarını tənqidi şəkildə qiymətləndirmək (PK-20);**
- **təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak edə bilmək (PK-21);**
- **innovativ yanaşma tələb edən mürəkkəb və gözlənilməz şəraitlərdə müstəqil şəkildə fəaliyyət göstərmək (PK-22);**
- **təşkilat və ya qrupların strateji fəaliyyəti ilə bağlı məsuliyyət daşımaq (PK-23);**
- **mürəkkəb şəraitlərdə etik qaydalara uyğun şəkildə davrana bilmək, şəxsi davranışların etik aspektləri, imkanları, məhdudiyyət və sosial rolunu anlamaq, fəaliyyət və təhsil sahəsi ilə bağlı məsələlərdə əsaslandırılmış qiymətləndirmə aparmaq (PK-24);**
- **davamlı təlim və peşəkar inkişafla bağlı şəxsi və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil təhsil üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək (PK-25).**

## 11. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə və təhsilin məzmununa qoyulan minimum tələblər

### 11.1. Peşə fəaliyyətinin xüsusiyyətləri

11.1.1. Doktorantların elmi-pedaqoji fəaliyyətinin əsas istiqamətləri:

- elmi-tədqiqat;
- pedaqoji;
- analitik;
- təşkilati-inzibatçılıq və s.

**11.2. Hazırlıq səviyyəsinə qoyulan tələblər:**

***Elmi-tədqiqat fəaliyyəti üzrə:***

- bilik və bacarıqların mahiyyətini öyrənmək və tədqiq etmək;
- elm və təhsilin aktual problemlərinin aşkar edilərək tədqiq edilməsi;
- təhsil sahələri üzrə tədqiqatın aparılması planı və proqramının işlənib hazırlanması;
- elmi bölmələr və fərdi icraçılar üçün müvafiq tapşırıqların hazırlanması;
- təhsil tədqiqatlarının aparılması, alınmış nəticələrin təhlili alətlərinin və metodlarının işlənib hazırlanması;
- elmi icmalların, hesabatların və elmi nəşrlərin hazırlanması üçün mövcud məlumatların ümumiləşdirilməsi;
- elmi-tədqiqat mövzusu üzrə məlumatların axtarılması, toplanılması, işlənilməsi və təhlili;
- mikro və makro səviyyəsində təhsilin inkişafının səmərəli maliyyə təminatını aşkarlayıb tədqiq etmək;

***Pedaqoji fəaliyyət üzrə:***

- ixtisası üzrə fənnini təhsil müəssisələrində tədris etmək;
- təhsil proqramı və tədris-metodiki materialları hazırlamaq.

***Analitik fəaliyyət üzrə:***

- bazar iqtisadiyyatı şəraitində inkişaf istiqamətlərini müəyyənləşdirib qiymətləndirmək;
- təhsil müəssisələrinin fəaliyyətini xarakterizə edən iqtisadi göstəricilərini təhlil etmək;
- qəbul edilmiş idarəetmə qərarlarının əsaslandırılması məqsədi ilə maliyyə və iqtisadi informasiyaların axtarışı, təhlili və qiymətləndirilməsi;
- təhsil sahəsində hüquqi sənədlərin tənzimlənməsi metodları və alətlərinin təhlili və konseptual yanaşmaların qiymətləndirilməsi;
- bütün növ resurslardan səmərəli istifadəni qiymətləndirmək.

***Təşkilati-inzibatçılıq fəaliyyəti üzrə:***

- elmi təşkilat və təhsil müəssisələrinin inkişafının qısa və uzunmüddətli inkişafı üzrə strategiyaların işlənib hazırlanmasına rəhbərlik etmək;
- hazırlanmış və tədqiq edilmiş qərarların icrası işini təşkil və təmin etmək;
- insan resurslarının formalaşması və istifadəsini idarə etmək.

**11.3. Təhsilin məzmununa qoyulan minimum tələblər**

Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində doktorant:

**Bilməlidir:**

***Xarici dil üzrə:***

Xarici dildə neytral səs informasiyasının və ritminin özünəməxsusluğunu, təhsil sahəsi üçün səciyyəvi olan tələffüz üslubunun əsas xüsusiyyətlərini, ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahidləri həcmində leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, dili öyrənilən ölkələrin mədəniyyəti və adət-ənənələrini, nitq və etiket qaydalarını;

***ali məktəb pedaqogikası üzrə:***

Azərbaycanda ali təhsil sistemini, ali təhsil müəssisələrinin, tələbə və müəllimlərin vəzifələrini, ali təhsil müəssisəsində təlim prosesi və təhsilin məzmununu, didaktika və onun müasir problemlərini, mühazirə və ona verilən müasir tələbləri, tərbiyə və özünü tərbiyə, rəhbərlik və idarə etmə məsələlərini, elmi-tədqiqat (müəllim və tələbə) işinin metodikasını;

***psixologiya üzrə:***

Psixologiyanın obyekti, predmeti və metodlarını, psixologiyanın əsas istiqamətlərini, psixikanın quruluşunu, şüurluluq və qeyri-şüurluluğun qarşılıqlı münasibətini, tələbə psixologiyasını və s.

**Bacarmalıdır:**

***xarici dillər üzrə:***

Daxil olduğu ixtisasa dair mətnləri oxumağı, ixtisasa dair dövrü mətbuat nümunələri, internet resurslarından götürülmüş mətnləri tərcümə etməyi, annotasiya, referat, tezis, tərcümeyi-hal və s. yazmağı.

***Ali məktəb pedaqogikası üzrə:***

Mühazirə oxumağı; seminar və məşğələləri planlaşdırmağı və aparmağı, elmi-tədqiqat işini yerinə yetirməyi, bununla bağlı fərziyyələr irəli sürməyi, eksperiment aparmağı və nəticələri tətbiq etməyi;

***psixologiya üzrə:***

Hər bir tələbəyə psixoloji baxımdan fərdi qaydada yanaşmağı, insanların psixoloji tipləri və xüsusiyyətləri barədə məlumata malik olmalı, tələbələrlə ünsiyyət qurmaq bacarığı və s.

**Yiyələnməlidir:**

Xarici dildə sərbəst (və ya lüğətin köməyi ilə) oxumaq və yazmaq vərdişlərinə, ali təhsil müəssisəsində tədris və tədqiqat işləri aparmağa, tələbələrə psixoloji yanaşma keyfiyyətlərinə və s.

**11.4. Fənlər bölümü**

Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində doktorant

**Bilməlidir:**

-müasir fəlsəfə, pedaqogika və psixologiya elmlərinin əldə etdiyi nailiyyətləri sistemləşdirilmiş şəkildə şərh etməyi, yeni elmi sistemlərin transformasiya prosesinin qanuna uyğunluqlarını və metodoloji prinsiplərini, mikro və makro problemləri və modellərin sistemli şəkildə şərhini, qlobal qeyri-sabitlik şəraitində təhsil təhlükəsizliyinin qorunması siyasətini, uzunmüddətli bilik, bacarıq və vərdişlərin artımının sürətləndirilməsi yollarını;

-elmin və ixtisasının fəlsəfi-metodoloji aspektdən dəyərləndirilməsini, mövcud nəzəri və metodoloji problemlərin konseptual qiymətləndirilməsini, müxtəlif yanaşma-ların müqayisəli təhlili və nə-zəri ümumiləşdirilmələrin aparılması metodikasını, təhsil sisteminin ictimai həyatın digər sfera və sahələri ilə inteqrativ bağlılığının fəlsəfi interpretasiyasını;

-təhsil kreditlərinin qanununa uyğunluqlarını;

-elmi təhlil üzrə yeni tədqiqatların əsas nəticələrini;

-elm və təhsil məsələlərin həlli üçün zəruri olan müasir proqram məhsullarını.

**Bacarmalıdır:**

-təhsil nəzəriyyəsinin məzmununu izah etməyi, təhsil strategiyasının müəyyənləşdirilməsini, sosial-siyasi, iqtisadi, hüquqi, ekoloji savadsızlığa qarşı mübarizənin istiqamətləri, qeyri-bərabərliyi tö-rədən səbəblər, amillər və mənbələri aşkar etməyi, müasir təhsilin əsas prinsipləri, dövlətin təhsil siyasəti və onun xarici təsirlərdən qorunması və milli inkişafa olan təsirini müəyyənləşdirməyi;

-təhsil prosesinin konseptual məzmununu tam və dolğun şəkildə üzə çıxarmağı, konseptual yanılmalara yol verilməməyi, aparılan tədqiqatların fəlsəfi metodoloji yönümünü, o cümlədən problemlərin tədqiqat metodları və şərhi üsullarını müəyyən etməyi, onların inkişaf təmayülləri və perspektivləri haqqında əsaslandırılmış biliklər sistemini formalaşdırmağı;

-təhsil proseslərinin dəqiq inkişaf proqnozlarını formalaşdırmaq.

**11.5. Elmi-tədqiqat işləri üzrə:**

Doktorant (və ya dissertant) elmi-tədqiqat işini yerinə yetirməklə aşağıdakıları **bilməli** və **bacarmalıdır:**

-elmi-tədqiqat işini planlaşdırmağı;

-tədqiqat mövzusunu seçməyi;

-mövcud ədəbiyyatla tanışlıq və ədəbiyyat seçimi;

-elmi-tədqiqat işini aparmağı;

-elmi-tədqiqat işinin nəticələrini təhlil etməyi;

-təhlil nəticəsində müəyyən nəticə çıxarmağı;

-alınmış nəticələrin tədqiqi imkanlarını müəyyənləşdirməyi;

-yerinə yetirilmiş tədqiqat işinin müdafiəsini;

-tədqiqat işinin nəticələrinin çapa hazırlanmasını;

-elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrdən əldə etdiyi nəticələrdən dissertasiya işində istifadə etməyi;

**Yiyələnməlidir:**

-peşəkar sferada praktiki fəaliyyət vərdişlərinə;

-peşəkar sfera elmi-tədqiqat işlərinin aparılmasının metod və metodologiyasına;

-sərbəst tədqiqat və elmi iş aparmaq vərdişlərinə;

-müasir vasitələrin tədqiqi ilə təhsil proseslərinin makro və mikro modelləşmə vərdişlərinə;

-təhsil proseslərinin ekonometrik modellərinin qurulması metodologiyasına.

**Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

***İxtisaslaşmalar üzrə səriştələr (kompetensiyalar) və buna müvafiq fənlər ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

**12. Tədris prosesinin forma və metodları**

12.1. Doktorantın nəzəri təlimi və pedaqoji hazırlığı mühazirə və məsləhət formasında həyata keçirilir.

12.2. Doktorant hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya, praktik iş və digər metodlardan istifadə edilə bilər.

**13. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə**

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Əsasnaməsinə uyğun olaraq müvafiq bülletenində qeyd edilən hüquqi-normativ sənədlərə uyğun olaraq aparılır.*

## *FƏLSƏFƏ DOKTORU HAZIRLIĞI*

Azərbaycan Respublikasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsilin ən yüksək səviyyəsi olan doktorantura yolu ilə həyata keçirilir və müvafiq (elm sahələri göstərilməklə, fəlsəfə doktoru və elmlər doktoru) elmi dərəcələrin verilməsi ilə başa çatır. Doktoranturada təhsil fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə həyata keçirilir. Doktoranturada təhsil almaq əyani (istehsalatdan ayrılmaqla) və qiyabi (istehsalatdan ayrılmamaqla) formalar üzrə həyata keçirilir. Doktorantura təhsilini həyata keçirən ali təhsil müəssisələri və elmi təşkilatlar elmi və elmi-pedaqoji kadr hazırlığını dissertantlıq (dissertantura) yolu ilə də reallaşdırır. Fəlsəfə doktoru proqramı üzrə doktoranturanın əyani forması üzrə təhsil müddəti 3 il, qiyabi və dissertantlıq yolu ilə isə 4 ildir. Müstəsna hallarda bütün təhsil formaları üzrə təhsil müddəti uzadıla bilər. Doktoranturada və dissertantlıq yolu ilə təhsilini başa çatdırmış məzunlara təhsil aldıqları müəssisənin müvafiq arayışı və imtahanların verilməsi haqqında vəsiqə verilir.

### 1. Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya magistr (rezident) elmi-ixtisas dərəcəsi və ya ona bərabər tutulan ali təhsili və xüsusi elmi hazırlığı olan Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar. Doktoranturanın (keçmiş aspiranturanın) tam kursunu bitirən şəxs eyni ixtisas üzrə təkrarən doktoranturaya qəbul oluna bilməz.

### 1.2. Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya sənəd qəbulu

Sənədlərin qəbulu forması, qaydaları, qəbul planı və imtahanların keçirilmə müddəti haqqında kütləvi informasiya vasitələrində, qəbulu həyata keçirən müəssisə tərəfindən müvafiq elan verilir. Sənədlərin qəbulu üçün doktoranturanın fəaliyyət göstərdiyi ali təhsil müəssisəsinin və elmi təşkilatın rəhbərinin (və ya elmi işlər üzrə müavininin) sədrliyi ilə qəbul komissiyası yaradılır. Qəbul komissiyası fakültə, kafedra, şöbə, bölmə, laboratoriya rəhbərlərindən, aparıcı əməkdaşlardan və bir qayda olaraq, doktorantların nəzərdə tutulan rəhbərlərindən təşkil olunmalıdır. Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ərizə (doktorantura təhsilini həyata keçirən müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi (foto şəkil və imza möhürlə təsdiqlənir);
- tərcümeyi-hal (tarix qeyd olunmaqla iddiaçının imzası ilə təsdiqlənir);
- 4 ədəd fotoşəkil (3x4 sm ölçüdə başı açıq halda);
- iş yerindən xasiyyətnamə (iş yerində verilmə tarixi qeyd olunmaqla, rəhbərin imzası və möhürlə təsdiq edilmiş);
- əmək kitabçasından çıxarış (iş yerində verilmə tarixi qeyd olunmaqla, məsul şəxsin imzası və möhürlə təsdiq edilmiş);
- çap olunmuş elmi əsərlərin siyahısı (iş yerində verilmə tarixi qeyd olunmaqla, məsul şəxsin imzası və möhürlə təsdiq edilmiş *AAK Forma 2.4. Əlavə 18.* ) və ya seçilmiş ixtisas üzrə referat;
- çap olunmuş elmi əsərlərin ottiski;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və ona əlavənin (diplom və diploma əlavənin əsli şəxsən təqdim olunur) müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə)
- magistratura təhsili alanlar diplom işlərinin surətini müdafiə etdikləri ali təhsil müəssisəsinin kitabxanasında təsdiq edilmiş və SD diskdə elektron versiyasını təqdim edirlər;
- şəxsiyyəti təsdiq edən sənədin surəti (əsli şəxsən təqdim olunur).
- ***Qeyd:***

1. *Doktoranturaya təhsil sahəsində azı 2 illik pedaqoji staja malik olan şəxslər sənəd təqdim edə bilərlər.*
2. *İddiaçılar doktoranturaya qəbul imtahanlarının nəticələrinə uyğun olaraq qəbul olunurlar.*

## 2. Fəlsəfə doktoru hazırlığı üzrə dissertantura

Dissertantlıq yolu ilə yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsil müəssisələrində, elmi və digər təşkilatlarda çalışan mütəxəssislərin istehsalatdan ayrılmamaqla, elmi dərəcənin alınması üçün təhkim olunmaqla, dissertasiya işinin yerinə yetirilməsini təmin edir. Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq hüququna ali təhsilli, ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan, müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan ali təhsil müəssisələrinin, elmi və digər təşkilatların elmi və elmi-pedaqoji kadrları malikdirlər. Dissertantlıq yolu ilə təhsil müddətini başa vuran şəxslər eyni ixtisas üzrə təkrar dissertant olmaq hüququna malik deyillər. Dissertant kimi təhkim olunmaq istəyən şəxslər, bir qayda olaraq, azı 2 (iki il) elmi və elmi-pedaqoji iş stajına malik olmalıdırlar.

### 2.1. Fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya sənəd qəbulu

Sənədlərin qəbulu forması, qaydaları, qəbul planı və imtahanların keçirilmə müddəti haqqında kütləvi informasiya vasitələrində, qəbulu həyata keçirən müəssisə tərəfindən müvafiq elan verilir. Sənədlərin qəbulu üçün doktoranturanın fəaliyyət göstərdiyi ali təhsil müəssisəsinin və elmi təşkilatın rəhbərinin (və ya elmi işlər üzrə müavininin) sədrliyi ilə qəbul komissiyası yaradılır. Qəbul komissiyası fakültə, kafedra, şöbə, bölmə, laboratoriya rəhbərlərindən, aparıcı əməkdaşlardan və bir qayda olaraq, doktorantların nəzərdə tutulan rəhbərlərindən təşkil olunmalıdır.

Fəlsəfə doktoru hazırlığı üzrə dissertantlıq yolu ilə təhsil almaq üçün aşağıdakı sənədlər təqdim edilir:

- ərizə (dissertantura təhsilini həyata keçirən müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi (foto şəkil və imza möhürlə təsdiqlənir);

- tərcümeyi-hal (tarix qeyd olunmaqla iddiaçının imzası ilə təsdiqlənir);
- 4 ədəd fotoşəkil (3x4 sm ölçüdə başı açıq halda);
- iş yerindən xasiyyətnamə (iş yerində verilmə tarixi qeyd olunmaqla, rəhbərin imzası və möhürlə təsdiq edilmiş);
- əmək kitabçasından çıxarış (iş yerində verilmə tarixi qeyd olunmaqla, məsul şəxsin imzası və möhürlə təsdiq edilmiş);
- çap olunmuş elmi əsərlərin siyahısı (iş yerində verilmə tarixi qeyd olunmaqla, məsul şəxsin imzası və möhürlə təsdiq edilmiş *AAK Forma 2.4. Əlavə 18*) və ya seçilmiş ixtisas üzrə referat;
- çap olunmuş elmi əsərlərin ottiski;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və ona əlavənin (diplom və diploma əlavənin əsli şəxsən təqdim olunur) müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- magistratura təhsili alanlar diplom işlərinin surətini müdafiə etdikləri ali təhsil müəssisəsinin kitabxanasında təsdiq edilmiş və SD diskdə elektron versiyasını təqdim edirlər;
- şəxsiyyəti təsdiq edən sənədin surəti (əsli şəxsən təqdim olunur).

***Qeyd:***

1. *Dissertanturaya azı 2 illik elmi və ya elmi-pedaqoji staja malik olan şəxslər təhkim oluna bilərlər.*
2. *İddiaçılar dissertanturaya müsahibə yolu ilə qəbul olunurlar.*

## 3. İxtisas uyğunluğu

Doktoranturaya qəbul olmaq istəyən şəxslərin ixtisas uyğunluğu qəbul komissiyası tərəfindən müəyyən edilir. Doktoranturaya qəbul olmaq istəyən şəxslə nəzərdə tutulan elmi rəhbər müsahibə keçirir və rəhbərliyi həyata keçirmək barədə razılıq və ya imtina qərarını yazılı surətdə qəbul komissiyasına təqdim edir. İmtina olunduğu halda digər elmi rəhbər təklif edilir. Qəbul komissiyası nəzərdə tutulan rəhbərin rəyi və təqdim edilən digər sənədlər əsasında imtahanlara buraxılmaq haqqında qərar qəbul edir və bu barədə bir həftədən gec olmayaraq iddiaçıya bildiriş göndərir. Bildiriş doktoranturanın fəaliyyət göstərdiyi ali təhsil müəssisəsi və elmi təşkilat rəhbərləri tərəfindən imzalanır və bu bildiriş iş yerindən məzuniyyət almaq hüququ verir.

## 4. Qəbul imtahanları və müsabiqə

Doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən (rus dili istisna olmaqla, ingilis, alman və ya fransız dili, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) və fəlsəfədən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Qəbul imtahanlarını keçirmək məqsədi ilə ali təhsil müəssisələrində və elmi təşkilatlarda müvafiq fənlər üzrə imtahan komissiyaları yaradılır. İxtisas fənnindən qəbul imtahanını doktoranturanın fəaliyyət göstərdiyi ali təhsil müəssisəsinin və elmi təşkilatın rəhbəri tərəfindən yaradılan komissiya həyata keçirir. İxtisas fənnindən 3 (kafi) qiymət alanların növbəti imtahanlarda iştirakı tövsiyyə olunmur. Komissiyanın tərkibində müvafiq ixtisas üzrə ən azı iki

elmlər doktoru və ya professor olmalıdır. Nəzərdə tutulan rəhbərlər də komissiyanın üzvü ola bilərlər. Komissiyanın sədri ali təhsil müəssisəsinin və elmi təşkilatın rəhbəri, yaxud elmi işlər üzrə müavini təyin edilir. Müstəsna hallarda, bəzi ixtisaslar üzrə elmlər doktorları və professorlar olmadıqda, komissiyanın tərkibinə fəlsəfə doktorları (elmlər namizədləri), dosentlər, xarici dil üzrə isə elmi (alimlik) dərəcəsi olmayan təcrübəli mütəxəssislər daxil edilə bilər. Bərabər ballar toplandığı halda, müsabiqədə ixtisas fənnindən daha yüksək qiymət alan və çap edilmiş elmi əsərləri indeksli elmi jurnallarda daha çox olan şəxslərə üstünlük verilir. Ali təhsil müəssisələrində və ya elmi təşkilatlarda yaradılmış qəbul komissiyaları imtahanların nəticələri əsasında müvafiq qərar qəbul edirlər.

Ali təhsil müəssisələri və elmi təşkilatların elmi şuraları doktorantların dissertasiya mövzularını və elmi rəhbərlərini onların qəbul komissiyaları tərəfindən doktoranturaya qəbul olunmaları haqqında qərar

qəbul etdikləri gündən 1 aydan gec olmamaq şərtilə təsdiq edir. Ali təhsil müəssisəsinin və elmi təşkilatın elmi şurası müvafiq şöbə, bölmə, kafedra və ya laboratoriyanın təqdimatı əsasında iddiaçının doktorant (və ya dissertantın təhkim olunması) qəbul olunması onun dissertasiya mövzusu, fərdi iş planı və elmi rəhbəri (elmi məsləhətçisi) haqqında qərar qəbul edir. Elmi şuranın qərarı əsasında ali təhsil müəssisəsi və ya elmi təşkilatın rəhbəri iddiaçının təhkim olunması haqqında əmr verir (41 nömrəli əlavə).

## 5. Elmi rəhbər (məsləhətçi)

Doktoranturaya qəbul haqqında qərarda (əmrdə) doktorantın (və ya dissertantın) dissertasiyasının mövzusu, təhsil müddəti və rəhbəri (rəhbərləri) göstərilir və onlara bu haqda məlumat verilir. Bir qayda olaraq, doktorantın (və ya dissertantın) elmi rəhbəri elmlər doktoru və ya fəlsəfə doktoru olan professor olur. Müstəsna hallarda, ali təhsil müəssisələrinin və elmi təşkilatların elmi şuralarının qərarı əsasında müvafiq ixtisasa malik fəlsəfə doktorları (elmlər namizədləri) da doktorantlara elmi rəhbərlik işinə cəlb oluna bilərlər. Dissertasiya ilə bağlı tədqiqat işlərinin iki müxtəlif təşkilatda və ya iki ixtisasları əhatə edən mövzular üzrə aparılarkən doktoranta (və ya dissertanta) iki elmi rəhbər, yaxud rəhbər və məsləhətçi təyin oluna bilər. Onlardan biri fəlsəfə doktoru (elmlər namizədi) ola bilər. Elmi rəhbər doktoranta (və ya dissertanta) elmi iş üzrə məsləhətlər verir, doktorantın təsdiq edilmiş fərdi iş planına (tədris proqramına) (10 və 11 nömrəli əlavələr) uyğun fəaliyyətinə rəhbərlik edir və dissertasiya işinin müəyyən olunmuş vaxtda keyfiyyətlə yerinə yetirilməsinə nəzarət edir.

## 6. Fərdi iş planı

Doktoranturada (və ya dissertanturada) təhsil müddətində doktorant (dissertant) ali təhsil müəssisəsinin və elmi təşkilatın elmi şurası tərəfindən təsdiq edilmiş fərdi iş planı (bax: 10 nömrəli əlavə) əsasında fəaliyyət göstərir.

Doktorant təhsil müddətində:

- peşə biliklərinə dərindən yiyələnməli;
- müstəqil elmi tədqiqat işi aparmaq vərdişləri əldə etməli;
- elmi tədqiqatlar aparmaq metodologiyasını mənimsəməli;
- fərdi iş planını tam yerinə yetirməli;
- nəzərdə tutulan doktorluq imtahanlarını verməli;
- elmi tədqiqatın nəticələrini əks etdirən məqalələr dərc etdirməli;
- elmi tədqiqatın nəticələrini aprobasiya etdirməli;
- elmi tədqiqat işini bitirməlidir.

Doktorant fərdi iş planının yerinə yetirilməsi barədə vaxtaşırı şöbə, bölmə, kafedra, laboratoriya iclaslarında hesabat verir (16 nömrəli əlavə).

## 7. Doktorluq imtahanları

Fəlsəfə doktoru proqramı üzrə təhsil alan Azərbaycan Respublikasının vətəndaşları iddia olunan ixtisas fənni (həmçinin ixtisas uyğunluğu nəzərə alınmaqla, digər fəndən) və xarici dil fənnindən (ingilis, alman və ya fransız dillərindən biri) doktorluq imtahanları verməlidirlər. Fəlsəfə doktoru proqramı üzrə doktorantura və ya dissertantura yolu ilə təhsil alan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təhsil müddətində müvafiq olaraq digər fənlərdən başqa əlavə “Azərbaycan dili” fənnindən də doktorluq imtahanı verirlər (41 nömrəli əlavə).

***Qeyd:***

*1. İxtisas fənni, xarici dil və Azərbaycan dili üzrə doktorluq imtahanları doktorant və dissertantların təhkim olunduqları ali təhsil təhsil müəssisəsi və ya elmi təşkilatlarda keçirilir.*

*2. İmtahanlar ildə iki dəfə–yaz (aprel-may) və payız (oktyabr-noyabr) sessiyalarında keçirilir.*

*3. Tədqiqatçıya hər bir fəlsəfə doktoru imtahanı üzrə onun nəticəsini özündə əks etdirən və Komissiyanın müəy-yən etdiyi formada rektorun (və ya direktorun) imzası və müəssisə (və ya təşkilatın) möhürü ilə təsdiqlənmiş şəhadətnamə təqdim edilir.*

*4. Fəlsəfə doktoru imtahanlarının nəticələri həmin imtahanların verildiyi tarixdən dissertasiyanın ilkin müzakirəsinədək beş il müddətində etibarlı sayılır.*

## 8. Attestasiya

Doktorantlar (və ya dissertanlar) ildə bir dəfədən az olmamaq şərtilə, ali təhsil müəssisələri və elmi təşkilatlar tərəfindən təsdiq olunmuş attestasiya haqqında əsasnamələrə uyğun olaraq, attestasiyadan keçməlidirlər (10 nömrəli əlavə).

Attestasiyanın keçirilmə müddəti ali təhsil müəssisəsi və elmi təşkilatların rəhbərləri tərəfindən müəyyən edilir. Doktorantın növbəti tədris ilində təhsilini davam etdirməsi attestasiyanın nəticəsinə əsasən müəyyən edilir. Ali təhsil müəssisələrinin və elmi təşkilatların elmi şuralarında doktorantların elmi rəhbərlərinin vaxtaşırı hesabatları dinlənilir. Doktoranturada (və ya dissertanturada) fərdi iş planını yerinə yetirən və elmi tədqiqat işini bitirən şəxslər "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq üçün dissertasiya işinin müdafiəsinə buraxılırlar (42 nömrəli əlavə).

***Qeyd:*** *Doktorantların attestasiyası adətən hər il dekabr və ya yanvar ayında keçirilir. Attestasiya dokto-rantın təhkim olunduğu kafedra, şöbə və d. keçirilir.*

*Doktorant və onun elmi rəhbəri cari il üçün nəzərdə tutulan planın yerinə yetirilməsi haqqında hesabat verirlər və növbəti il üçün nəzərdə tutulan iş haqqında iclas iştirakçılarına məlumat verirlər. Attestasiyanın nəticəsi kafedra, şöbə və d. iclas protokolunda əksini tapmalıdır. Kafedra, şöbə və d. iclas protokolundan çıxarış və doktorantın (dissertantların) hesabatı doktorant və dissertantların təhsili ilə məşğul olan şöbəyə təqdim olunmalıdır. Üzrsüz səbəblərə görə fərdi iş planını yerinə yetirməyən, təhkim olunduğu kafedra, şöbə və d. ilə əlaqə saxlamayan şəxs attestasiyadan keçməmiş hesab olunur və doktoranturadan (dissertanturadan) xaric olunur.*

## 9. Fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyalara dair tələblər

Fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiya iddiaçının müstəqil elmi işi olaraq aşağıdakı tələblərdən birinə cavab verməlidir:

- ❖ dissertasiyada müvafiq elm sahəsi üçün böyük əhəmiyyət kəsb edən hər hansı məsələnin yeni həlli təklif olunur;
- ❖ böyük tətbiqi əhəmiyyəti olan iqtisadi, texniki və texnoloji işləmələrin təkmilləşdirilmiş elmi şərhi verilir.

Fəlsəfə doktoru elmi dərəcəsinin iddiaçıları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (bundan sonra Komissiya) tərəfindən müəyyən edilmiş qaydada ixtisas fən-nindən doktorluq imtahanları verməlidirlər. İxtisas sahəsini dəyişmiş iddiaçılar əlavə olaraq yeni seçdiyi sahənin ümumelmi əsaslarından doktorluq imtahanı verirlər. Doktorluq imtahanları verildiyi tarixdən beş il ərzində etibarlı sayılır. İxtisas fənni üzə doktorluq imtahanı dissertasiyanın müdafiəsi keçiriləcəyi təşkilatda verilir. Doktorluq imtahanlarının keçirilməsi ilə bağlı xərcləri nəzdində imtahan komissiyası yaradılan müəssisə (bir-lik, təşkilat) ödəyir. Doktorluq imtahanlarının proqramı və imtahanların aparılma qaydası Komissiya tərəfindən təsdiq edilir. Elmi dərəcənin iddiaçıları dissertasiyanı xüsusi hazırlanmış əlyazması şəklində təqdim edirlər. Dissertasiya müəllifin təkbaşına yazdığı və açıq müdafiə üçün irəli sür-düyü elmi müddəaların və nəticələrin məcmusunu əhatə edən elmi işdir.

Dissertasiya daxili vəhdətə malik olmalı, müəllifin elmə şəxsən verdiyi töhfəni əks etdirməlidir. Müəllif tərəfindən təklif olunmuş yeni nəticələr ciddi əsaslandırılmalı, mövcud faktlarla və elmi baxışlarla müqayisədə tənqidi qiymətləndirilməlidir. Tətbiqi əhəmiyyətə malik dissertasiyada müəllif tərəfindən alınmış elmi nəticələrin praktikada tətbiqi barədə məlumat, nəzəri əhəmiyyətə malik olan dissertasiyalarda isə elmi nəticələrin tətbiqi ilə əlaqədar tövsiyələr verilməlidir. Dissertasiya Komissiya tərəfindən müəyyən edilmiş qaydalara uyğun tərtib edilir.

Dissertasiyaların mövzuları müəssisələrin (birliklərin, təşkilatların) və ali təhsil müəssisələrinin fakültələrinin və ya elmi təşkilatların elmi (elmi-texniki) şuralarında hər bir iddiaçı üçün ayrılıqda təsdiq olunmalıdır. Dissertasiyaların əsas elmi nəticələri elmi nəşrlərdə dərc olunmalıdır. Azərbaycan Respublikasının müvafiq elmi nəşrlərinin siyahısı Komissiya tərəfindən təsdiq edilir. Dissertasiyanın əsas elmi nəticələri xarici ölkələrin elmi jurnal və nəşrlərində də dərc edilə bilər. Xarici ölkələrin elmi jurnal və nəşrlərində xarici dildə dərc edilmiş dissertasiyanın əsas elmi nəticələrinin Azərbaycan dilində qısa xülasəsi (dərc edilmiş nəticələrin 20 faizindən az olmamaqla) müdafiə zamanı Komissiyaya təqdim edilməlidir. Dissertasiyaların elmi nəticələrinin elmi nəşrlərdə dərc olunması ilə bağlı tələblər Komissiya tərəfindən müəyyən edilir. Fəlsəfə doktoru dissertasiyasının nəticələrinə dair iddiaçının ikisi həmmüəllifsiz olmaqla beş, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə humanitar və ictimai elmlər üzrə azı bir, dəqiq və təbiət elmləri üzrə azı iki məqaləsi dərc edilməlidir. Dissertasiyanın əsas elmi nəticələrini əks etdirən dərc olunmuş işlərə ixtiralar haqqında müəlliflik şəhadətnamələri, sənaye nümunələri və patentlər, ümumrespublika və beynəlxalq konfrans və sim-poziumların nəticələri üzrə dərc olunmuş məruzə və tezislər, elektron elmi nəşrlər də aiddir. Ümumrespublika konfrans və simpoziumlarının nəticələri üzrə dərc olunmuş məruzə və tezislərə, habelə elektron nəşrlərə dair tələblər Komissiya tərəfindən müəyyən edilir. Dissertasiyanın yazılışı zamanı iddiaçı iqtibas etdiyi materialların mənbələrinə və müəlliflərinə istinad etməlidir. Kollektiv müəlliflərə mənsub olan elmi ideya və işləmələrdən istifadə edilirsə, iddiaçı bu barədə dissertasiyada qeyd etməlidir. Müəllifinə və ədəbiyyatına istinad olunmayan özgənin materiallarından istifadə edildikdə, baxılma mərhələsindən asılı olmayaraq dissertasiyanın ekspertizası dayandırılır və iddiaçıya həmin mövzu üzrə təkrar müdafiə hüququ verilmir.

***Qeyd:*** *Məqalələr Ali Attestasiya Komissiyasının reyestrinə daxil olan nəşrlərdə dərc olunmalıdır. Doktorant eyni zamanda beynəlxalq və respublika elmi konfranslarında iştirak etməli, dissertasiya üzrə məqalə və tezisləri həmin konfransların materiallarında dərc etməlidir. Yalnız yuxarıda göstərilən şərtlər yerinə yetirilirsə, doktorant müdafiəyə buraxılır.*

## ELMLƏR DOKTORU HAZIRLIĞI

### 1.Elmlər doktoru hazırlığı üzrə doktorantura

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir, ali təhsilli və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Elmlər doktoru proqramı üzrə doktoranturada təhsil müddəti: əyani və qiyabi 4 ildir.

Doktorantura yolu ilə tam təhsil müddətini başa vurmuş şəxslər eyni ixtisas üzrə təkrar doktorant olmaq hüququna malik deyillər.

### 1.1.Elmlər doktoru hazırlığı üzrə doktoranturaya sənəd qəbulu:

- ərizə (doktorantura təhsilini həyata keçirən müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi (foto şəkil və imza möhürlə təsdiqlənir);
- tərcümeyi-hal (tarix qeyd olunmaqla iddiaçının imzası ilə təsdiqlənir);
- 4 ədəd fotoşəkil (3x4 sm ölçüdə başı açıq halda);
- iş yerindən xasiyyətnamə (iş yerində verilmə tarixi qeyd olunmaqla, rəhbərin imzası və möhürlə təsdiq edilmiş);
- əmək kitabçasından çıxarış (iş yerində verilmə tarixi qeyd olunmaqla, məsul şəxsin imzası və möhürlə təsdiq edilmiş);
- çap olunmuş elmi işlərin siyahısı (iş yerində verilmə tarixi qeyd olunmaqla, məsul şəxsin imzası və möhürlə təsdiq edilmiş *AAK Forma 2.4. Əlavə 18*);
- çap olunmuş elmi işlərin ottiski;
- monoqrafiya, dərslik, dərs vəsait, metodik vəsait, kitab və s.

- ali təhsil müəssisəsini bitirmək haqqında diplom və ona əlavənin notarial qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərinin Təhsil Nazirliyi tərəfindən tanınması haqqında şəhadətnamə), (diplom və diploma əlavənin əsli şəxsən təqdim olunur);
- elmlər doktoru proqramı üzrə doktorantura sənəd təqdim edənlər "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi (alimlik) dərəcəsi diplomunun (diplomun əsli şəxsən təqdim olunur)
- notarial qaydada təsdiq edilmiş surəti;
- dissertasiyanın surətini (SD diskdə elektron versiyası ilə birlikdə) və avtoreferatın əslini (SD diskdə elektron versiyası ilə birlikdə) təqdim edirlər;
- şəxsiyyəti təsdiq edən sənədin surəti (ş/v əsli şəxsən təqdim edilir).

Doktoranturaya qəbul olmaq istəyənlərlə doktorantura təhsilini həyata keçirən müəssisənin və yaxud təşkilatın rəhbərinin əmri ilə yaradılmış komissiya üzvləri müsahibə keçirir və müsbət qərar qəbul olunduğu halda bu müvafiq qaydada protokollaşdırılır və əmr əsasında rəsmiləşdirilir. Eyni bilik və bacarıq nümayiş etdirən namizədlərdən komissiya daha çox perspektivi olanlara üstünlük verir.

Komissiyanın qərarı Müəssisənin Elmi Şurasında müzakirə olunaraq müvafiq kafedra, şöbə, bölmə və ya laboratoriyanın təqdimatı əsasında doktorantın doktoranturaya qəbul, dissertasiyanın mövzusu, fərdi iş planı və elmi məsləhətçisi (məsləhətçilər) haqqında qərar qəbul edilir. Həmin qərar ali təhsil müəssisəsi və ya elmi təşkilatların fəaliyyətini tənzimləyən nizamnaməyə (əsasnaməyə) uyğun olaraq rəsmiləşdirilir.

Doktorant hər il ali təhsil müəssisəsi və elmi təşkilatın elmi şurasına fərdi iş planının yerinə yetirilməsi haqqında hesabat verir və həmin hesabat əsasında onun doktoranturada təhsilini davam etdirməsi barədə qərar qəbul olunur. Doktorantura təhsilini həyata keçirən müəssisənin və yaxud təşkilatın rəhbəri doktorantın təhsilini davam etdirməsi barədə əmr verir.

Doktorant təhsil müddəti ərzində dissertasiya işini başa çatdırmalı, aprobasiyasını keçirməli və müəyyən olunmuş qaydada onu müzakirəyə və müdafiəyə təqdim etməlidir.

Dövlət hesabına əyani təhsil alan doktorantlara qanunvericiliklə müəyyən olunmuş məbləğdə təqaüd ödənilir və hər il məzuniyyət verilir.

## 2. Dissertantlıq yolu ilə elmlər doktoru hazırlığı

Dissertantlıq yolu ilə yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsil müəssisələrində, elmi və digər təşkilatlarda çalışan mütəxəssislərin istehsalatdan ayrılmamaqla elmi dərəcənin alınması üçün təhkim olunmaqla dissertasiya işinin yerinə yetirilməsini təmin edir.

Dissertantlıq yolu ilə "Elmlər doktoru" elmi dərəcəsi almaq hüququna ali təhsilli, fəlsəfə doktoru (və elmlər namizədi) elmi dərəcəsinə malik, müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan ali təhsil müəssisələrinin, elmi və digər təşkilatların elmi və elmi-pedaqoji kadrları malikdirlər.

Dissertant kimi təhkim olunmaq istəyən şəxslər, bir qayda olaraq, elmi və elmi-pedaqoji iş stajına malik olmalıdırlar.

Elmlər doktoru proqramı üzrə dissertanturada təhsil müddəti 5 ildir.

Dissertantlıq yolu ilə tam təhsil müddətini başa vuran şəxslər ***eyni ixtisas üzrə*** təkrar dissertant olmaq hüququna malik deyillər.

### 2.1. Dissertantlıq yolu ilə təhkim olunmaq üçün sənəd qəbulu:

- ərizə (dissertantura təhsilini həyata keçirən müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
- kadrların şəxsi-qeydiyyat vərəq (foto şəkil və imza möhürlə təsdiqlənir);
- tərcümeyi-hal (tarix qeyd olunmaqla iddiaçının imza-sı ilə təsdiqlənir);
- 4 ədəd fotoşəkil (3x4 sm ölçüdə başı açıq halda);

- iş yerindən xasiyyətnamə (iş yerində verilmə tarixi qeyd olunmaqla, rəhbərin imzası və möhürlə təsdiq edilmiş);
- əmək kitabçasından çıxarış (iş yerində verilmə tarixi qeyd olunmaqla, məsul şəxsin imzası və möhürlə təsdiq edilmiş);
- çap olunmuş elmi işlərin siyahısı (iş yerində verilmə tarixi qeyd olunmaqla, məsul şəxsin imzası və möhürlə təsdiq edilmiş *AAK Forma 2.4. Əlavə 18*);
- çap olunmuş elmi işlərin ottiski;
- monoqrafiya, dərslik, dərs vəsait, metodik vəsait, kitab və s.
- fəlsəfə doktoru proqramı üzrə sənəd təqdim edənlər ali təhsil müəssisəsini bitirmək haqqında diplom və ona əlavənin notarial qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərinin Təhsil Nazirliyi tərəfindən tanınması haqqında şəhadətnamə), (diplom və diploma əlavənin əsli şəxsən təqdim olunur);
- elmlər doktoru proqramı üzrə dissertanturaya sənəd təqdim edənlər "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi (alimlik) dərəcəsi diplomunun (diplomun əsli şəxsən təqdim olunur) notarial qaydada təsdiq edilmiş surəti;
- dissertasiyanın surətini (SD diskdə elektron versiyası ilə birlikdə) və avtoreferatın əslini (SD diskdə elektron versiyası ilə birlikdə) təqdim edirlər;
- elmlər doktoru proqramı üzrə yazacağı dissertasiya mövzu və istiqaməti barədə yazılı şəkildə geniş təqdimat hazırlayır (aktuallığı, elmi yeniliyi, praktik əhəmiyyəti, tədqiqatın vəzifələri, işçi fərziyyə və s.)
- şəxsiyyəti təsdiq edən sənədin surəti (ş/v əsli şəxsən təqdim edilir).

Dissertanturaya təhkim olunmaq istəyənlərlə ali təhsil müəssisəsinin və ya elmi təşkilatın rəhbərinin əmri ilə yara-dılmış komissiya üzvləri müsahibə keçirir və müsbət qərar qəbul olunduğu halda bu müvafiq qaydada protokollaşdırılır və əmr əsasında rəsmiləşdirilir. Eyni bilik və bacarıq nümayiş etdirən namizədlərdən komissiya

daha çox indeksli jurnallarda məqalələri, kitabları, elmi nailiyyətləri və yaradıcılıq perspektivi olan elmi və ya elmi pedaqoji kadrlara üstünlük verir.

Elmi təşkilatın elmi şurası "Elmlər doktoru" elmi dərəcəsinə iddiaçı haqqında müvafiq ali təhsil müəssisəsi və ya elmi təşkilatın kafedra, şöbə, bölmə və ya laboratoriyanın təqdimatı əsasında dissertanturaya təhkim olunma, dissertasiyanın mövzusu, fərdi iş planı və elmi məsləhətçisi (məsləhətçilər) haqqında qərar qəbul edir. Həmin qərar ali təhsil müəssisələri və ya elmi təşkilatların fəaliyyətini tənzimləyən nizamnaməyə (əsasnaməyə) uyğun olaraq rəsmiləşdirilir.

Dissertantura təhsilini həyata keçirən müəssisənin və yaxud təşkilatın rəhbəri iddiaçının disertanturaya təhkim olunması haqqında əmr verir.

Dissertantlar hər il ali təhsil müəssisəsi və elmi təşkilatın Elmi şurasına fərdi iş planının yerinə yetirilməsi haqqında hesabat verir və həmin hesabat əsasında onun doktoranturada təhsilini davam etdirməsi barədə qərar qəbul olunur.Dissertantura təhsilini həyata keçirən müəssisənin və yaxud təşkilatın rəhbəri dissertantın təhsilini davam etdirməsi barədə əmr verir.

Dissertant təhsil müddəti ərzində dissertasiya işini başa çatdırmalı, aprobasiyasını keçirməli və müəyyən olunmuş qaydada onu müzakirəyə və müdafiəyə təqdim etməlidir.

"Elmlər doktoru" elmi dərəcəsi üzrə doktoranturada təhsil alan şəxslərin hüquq və vəzifələri dissertantlıq yolu ilə təhsil alan şəxslərə də şamil edilir.

Dissertasiya işini tamamlamaq məqsədi ilə elmlər doktoru proqramları üzrə dissertant təhkim olunmuş şəxslərə Elmi Şuranın qərarına əsasən iş yerindən qanunvericilikdə müəyyən edilmiş müddətə yaradıcılıq məzuniyyəti verilir.

## 3. Doktorantların və dissertantların attestasiyası

Doktorantlar və dissertantlar ***ildə bir dəfədən az olmamaq şərtilə,*** ali təhsil müəssisəsi və elmi təşkilat tərəfindən təsdiq olunmuş attestasiya haqqında əsasnamələrə uyğun olaraq, attestasiyadan keçməlidirlər.

Attestasiyanın keçirilmə müddəti ali təhsil müəssisəsi və elmi təşkilatların rəhbərləri tərəfindən müəyyən edilir. Doktorantın (dissertantın) növbəti tədris ilində təhsilini davam etdirməsi attestasiyanın nəticəsinə əsasən müəyyən edilir.

- Ali təhsil müəssisəsi və elmi təşkilatın elmi şuralarında doktorantların (dissertantların) elmi məsləhətçilərinin vaxtaşırı hesabatları dinlənilir. Doktoranturada (və ya dissertanturada) fərdi iş planını yerinə yetirməklə dissertasiya işini tamam bitirən şəxslər "Elmlər doktoru" elmi dərəcəsi almaq üçün dissertasiya işinin müvafiq ilkin müzakirəsi keçirilir və müsbət qərar qəbul edildikdə müdafiəyə buraxılırlar.
- Doktoranturada (dissertanturada) təhsil doktorantın (dissertantın) fərdi iş planı əsasında həyata keçirilir. Bu planın nümunəsi "Doktorantura" şöbəsi tərəfindən verilir və bir aydan gec olmayan müddət ərzində doktorant (dissertant) və onun elmi məsləhətçisi tərəfindən bütün təhsil müddəti üçün tərtib edilir və lazımi imzalarla təsdiqlənərək "Doktorantura" şöbəsinə təqdim olunur.
- Doktorant və dissertantların attestasiyası ildə bir dəfə dekabr və ya yanvar aylarında onların təhkim olunduqları kafedra, şöbənin və s. iclasında müzakirə olunduqdan sonra Elmi Şura tərəfindən təsdiqlənir.
- Attestasiyanın keçirilməsində məqsəd doktorant və dissertantın fərdi iş planında cari il üçün nəzərdə tutulmuş fəaliyyətinin dəyərləndirilməsidir.
- Attestasiyanın keçirilməsi üçün doktorant (dissertant) "Doktorantura" şöbəsindən fərdi iş planını götürür, attestasiya olunan il üçün yerinə yetirdiyi işlər haqqında lazımi qeydləri aparır və surətini təhkim olunduğu kafedra, şöbə və d. təqdim edir. Ödənişli əsaslarla təhsil alan doktorant və dissertantlar illik təhsil haqqını tam ödəmədiyi halda attestasiyaya buraxılmır. Bu haqda kafedra, şöbə və digərləri "Doktorantura" şöbəsi tərəfindən məlumatlandırılır.
- Doktorant (dissertant) elmi məsləhətçinin də iştirak etdiyi kafedra, şöbə və d. iclasında cari il ərzində yerinə yetirdiyi işlər haqqında hesabat verir və fərdi iş planında nəzərdə tutulan işlərin nəticələrini təqdim edir. Doktorant (dissertant) eyni zamanda sonrakı il üçün iş planı haqqında məlumat verir.
- Elmi məsləhətçi isə hesabat müddəti ərzində doktorantın (dissertantın) fəaliyyətinə qiymət verməlidir.
- Attestasiya keçirildikdən sonra fərdi iş planı imzalanır və təhkim olunduğu kafedra, şöbə və d. müzakirə protokolundan çıxarışla birlikdə "Doktorantura" şöbəsinə təqdim edilir.

Kafedra, şöbə və d. tərəfindən attestasiya aşağıdakı kimi keçirilir:

- ❖ **Attestasiya olunsun** (nəzərdə tutulan işlər tam həcmdə yerinə yetirilib və növbəti ildə təhsilini davam etdirməsi tövsiyə olunur).
- ❖ **Şərti olaraq attestasiya olunsun** (nəzərdə tutulan işlərin müəyyən hissəsi yerinə yetirilib və kafedra, şöbə və d. tərəfindən müəyyən edilmiş müddət ərzində tam həcmdə yerinə yetirilməsi tələb edilir).
- ❖ **Attestasiya olunmasın** (üzrlü olmayan səbəbdən nəzərdə tutulan işlər yerinə yetirilməmişdir).

Doktorantın (dissertantın) fərdi iş planının yerinə yetirilməsinə təhkim olunduqları kafedra, şöbə və d. ilə yanaşı "Doktorantura" şöbəsi tərəfindən müntəzəm olaraq nəzarət edilir.

Attestasiyanın keçirilmə qrafiki təhkim olunduqları kafedra, şöbə və d. ilə razılaşdırılaraq "Doktorantura" şöbəsi tərəfindən hazırlanır, müəssisə və ya təşkilatın rəhbəri tərəfindən əmrləşdirilir və bu barədə doktorant (dissertanta) qabaqcadan məlumat verir.

## 4. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işlərinə qoyulan tələblər

Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş elmlər doktoru dissertasiyası iddiaçının müstəqil elmi işi olaraq aşağıdakı tələblərdən birinə cavab verməlidir:

❖ İddiaçının apardığı elmi-tədqiqatlar və araşdırmalar mühüm sosial-mədəni və ya iqtisadi əhəmiyyət kəsb edən yeni və böyük elmi problemin həllini təmin edir;

❖ Dissertasiya işində müvafiq elmi sahənin perspektiv inkişafı üçün böyük nailiyyət hesab edilə bilən əsaslandırılmış yeni nəzəri müddəalar irəli sürülməli və işlənib hazırlanır;

❖ Elmi-texniki tərəqqini sürətləndirməyə əhəmiyyətli töhfə verən, elmi cəhətdən əsaslandırılmış iqtisadi, texniki və texnoloji işləmələr həll olunur;

❖ Dissertasiya iddiaçının şəxsən özünün yazdığı və müdafiə üçün irəli sürdüyü elmi müddəaların və nəticələrin məcmusunu əhatə edən tamamlanmış elmi tədqiqat işidir.

İddiaçı fəlsəfə doktoru dissertasiyasının müdafiəsinə çıxardığı elmi müddəaları və nəticələri elmlər doktoru dissertasiyasının müdafiəsinə çıxara bilməz.

## 5. Doktorantların mükafatlandırılması və elmi-pedaqoji işlərə cəlb olunması

Dövlət hesabına əyani təhsil alan doktorantlara qanunvericiliklə müəyyən olunmuş məbləğdə təqaüd ödənilir və hər il məzuniyyət verilir. Fərdi iş planını müvəffəqiyyətlə yerinə yetirən doktorantlara müxtəlif adlı təqaüdlər və ya ali təhsil müəssisələri və ya elmi təşkilatların daxili imkanları hesabına əlavə ödənişlər təyin oluna bilər. Əyani təhsil alan doktorantlar elmi məsləhətçinin razılığı ilə təhsil aldıqları ali təhsil müəssisələri və ya elmi təşkilatlarda 0,5 ştat vahidi ilə müvafiq elmi və ya elmi-pedaqoji işlərə cəlb oluna bilərlər.

| **Doktorant və Dissertantlar üçün YOL XƏRİTƏSİ** | **İcraçılar** | | **Tənzimləyən sənəd** | **Qeydlər** |
|---|---|---|---|---|
| | **Məsul Icraçı** | **Məlumatlandırılan Şəxs** | | |
| 2 | 3 | 5 | 6 | 7 |
| 1.Doktoranturaya və dissertanturaya sənədlərin qəbulu qaydaları, qəbul planı və imtahanların keçirilmə müddəti haqqında kütləvi informasiya vasitələrində elanın verilməsi | EPKHŞ | İ.Ə.Ş | TN tərəfindən təsdiq olunmuş layihə | |
| 2.Sənədlərin qəbulu və müsabiqənin keçirilməsi üçün rektorun əmri ilə qəbul komissiyasının yaradılması | EPKHŞ | Direktor | Əmr | |
| 3.Doktoranturaya və dissertanturaya müraciət edənlərin sənədlərinin araşdırılması və ixtisas uyğunluğunun müəyyənləşdirilməsi | QK | ------ | Protokol | |
| 4.Təqdim edilən sənədlərin əsasında qəbul komissiyasının imtahanlara buraxılmaq haqqında qərarının iddiaçılara bildirilməsi | EPKHŞ | İddiaçı | Protokol | |
| 5.Müvafiq ixtisaslar üzrə imtahan komissiyalarını yaradılması | EPKHŞ | Kafedra müdirləri | Əmr | |
| 6.Doktoranturaya qəbul imtahanlarının keçirilməsi və nəticələrin qəbul komissiyasına bildirilməsi | EPKHŞ | ------- | Əmr | |
| 7.Keçirilmiş müsabiqənin nəticələri və nəzərdə tutulan elmi rəhbərin rəyi əsasında qəbul komissiyasının qərarının rektorluğa bildirilməsi | EPKHŞ | Direktor | İmtahan Protokol | |

| | | | | |
|---|---|---|---|---|
| 8.Doktoranturaya qəbul olunanlar haqqında rektor tərəfindən əmrin verilməsi və Doktoranturaya istehsalatdan ayrılmaqla qəbul olunan şəxslərin kitabçasında doktoranturaya qəbul olunması haqqında əmrin qeyd edilməsi | EPKHŞ və ÜŞ | İddiaçı | Əmr | |
| 9. İddiaçıların müvafiq kafedralara təhkim olunması, onların dissertasiya mövzusu, fərdi iş planı və elmi rəhbəri (məsləhətçisi) haqqında qərarın qəbul edilməsi | EPKHŞ və EŞ | EŞ | Təqaud<br>Əmri | |
| 10. Qəbul olunan doktorant və dissertantlar haqqında məlumatların direktorluq tərəfindən Təhsil Nazirliyinə və AAK-a göndərilməsi | EPKHŞ və<br>Kafedralar | Doktorant / dissertant | Protokol çıxarışı<br>və təstiq | |
| 11. Təsdiq edilmiş dissertasiya mövzularının AMEA Kordinasiya Şurası tərəfindən təsdiqinin təmin edilməsi | EPKHŞ | Direktor | Hesabat (TN) | |
| 12. Doktorantlar üçün kafedra və ya şöbə tərəfindən həftəlik dərs proqramının hazırlanması və təsdiqlənməsi | EPKHŞ | Prorektor<br>və ya<br>Elmi katib | Siyahı | |
| 13. Doktorantların xarici dildən və ixtisasdan doktorluq (minimum) imtahanlarının verilməsi | EPKHŞ | Müəllimlər | Dərs jurnalı | |
| 14.Dissertasiyanın ilkin ekspertizası | Komis-siya | Direktor | EŞ qərarı | |
| 15.Dissertasiyanın müdafiəsi və AAK-da təsdiqi | DŞ və AAK | DŞ Elmi katibi | | |

1. EPKHŞ–Elmi-pedaqoji kadr hazırlığı şöbəsi
2. İ.Ə.Ş.–İctimaiyyətlə əlaqələ şöbəsi
3. ÜŞ–ümumi şöbə
4. EŞ–Elmi Şura
5. QK–Qəbul komissiyası
6. TN–Təhsil Nazirliyi
7. AAK–Ali Attestasiya Komissiyası
8. DŞ–Dissertasiya şurası

*Əlavə 1.*

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**

**Fəlsəfə doktoru proqramı üzrə əyani (qiyabi) doktoranturaya (dissertanturaya) sənəd təqdim etmiş şəxsə Elmi rəhbərin razılıq sənədi**

___________________________________şöbəsinin müdiri
*(elmi adı, dərəcəsi)*

_______________________________________________
*(soyadı, adı, atasının adı)*
Mən, ___________________________________________
*(soyadı, adı, atasının adı)*
________________________________________________
*(ixtisas şifri, elmi adı, dərəcəsi)*
________________________________________________
*(işlədiyi müəssisəsinin, kafedra, şöbə, bölməsinin adı və vəzifəsi)*
________________________________________________
*(ixtisasın şifri və adı)*
fəlsəfə doktoru proqramı üzrə əyani (və ya qiyabi) doktoranturaya (və ya dissertanturaya) sənəd təqdim etmiş:
_________________________________________
*(soyadı, adı, atasının adı)*
___________________________________________
*(dissertasiya mövzusu)*

dissertasiyasına elmi rəhbər olmağa razılıq verirəm.

İmza ____________ “___” _________ 20 il

*Əlavə 2.*

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**

**Fəlsəfə doktoru proqramı üzrə əyani (qiyabi) doktoranturaya qəbul (dissertanturaya təhkim) olunmuş şəxsə Elmi rəhbərin razılıq sənədi**

__________________________________ şöbəsinin müdiri
*(elmi adı, dərəcəsi)*
_______________________________________________
*(soyadı, adı, atasının adı)*
Mən,__________________________________________
*( dissertantın soyadı, adı, atasının adı)*
_______________________________________________
*(ixtisas şifri, elmi adı, dərəcəsi)*
_______________________________________________
*(işlədiyi müəssisəsinin, kafedra, şöbə, bölməsinin adı və vəzifəsi)*
_____________________________________________ *ixtisasından (ixtisasın şifri və adı)*
Fəlsəfə doktoru proqramı üzrə əyani (və ya qiyabi) doktoranturaya qəbul olunmuş (dissertanturaya təhkim olunmuş):
________________________________________________ *(soyadı, adı, atasının adı)*
________________________________________________
*(dissertasiya mövzusu)*
dissertasiyasına elmi rəhbər olmağa razılıq verirəm.

İmza _________ "__" _________ 20 il

*Əlavə 3.*

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**

**Elmlər doktoru proqramı üzrə əyani (qiyabi) doktoranturaya (dissertanturaya) sənəd təqdim etmiş şəxsə Elmi məsləhətçinin razılıq sənədi**
_________________________________ şöbəsinin müdiri
*(elmi adı, dərəcəsi)*
________________________________________________
*(soyadı, adı, atasının adı)*
Mən,___________________________________________
*(doktorantın soyadı, adı, atasının adı)*
_______________________________________________
*(ixtisas şifri, elmi adı)*
______________________________________________
*(işlədiyi müəssisəsinin, kafedra, şöbə, bölməsinin adı və vəzifəsi)*
_______________________________________________

*ixtisasından (ixtisasın şifri və adı)*

elmlər doktoru proqramı üzrə əyani (qiyabi) doktoranturaya (və ya dissertanturaya) sənəd təqdim etmiş:

____________________________________________

*(soyadı, adı, atasının adı)*

____________________________________________

*(dissertasiya mövzusu)*
dissertasiyasına elmi məsləhətçi olmağa razılıq verirəm.

İmza __________ “___” _________ 20 il

***Əlavə 4.***

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**

**Elmlər doktoru proqramı üzrə əyani (qiyabi) doktoranturaya qəbul (dissertanturaya təhkim) olunmuş şəxsə Elmi məsləhətçinin razılıq sənədi**

____________________________________şöbəsinin müdiri
*(elmi adı, dərəcəsi)*

____________________________________________

*(soyadı, adı, atasının adı)*
Mən,________________________________________
*(doktorantın soyadı, adı, atasının adı)*

____________________________________________

*(ixtisas şifri, elmi adı)*

____________________________________________

*(işlədiyi müəssisəsinin, kafedra, şöbə, bölməsinin adı və vəzifəsi)*

____________________________________________

*ixtisasından (ixtisasın şifri və adı)*

elmlər doktoru proqramı üzrə əyani (qiyabi) doktoranturaya (və ya dissertanturaya) qəbul olunmuş:

____________________________________________

*(soyadı, adı, atasının adı)*

____________________________________________

*(dissertasiya mövzusu)*
dissertasiyasına elmi məsləhətçi olmağa razılıq verirəm.

İmza ____________ “___” __________ 20 il

*<u>Layihə</u>*
**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**Azərbaycan Respublikasının**
**TƏSDİQ EDİRƏM:**

______________________________________________

**Azərbaycan Respublikasının**
**Təhsil İnstitutunun Elmi**
**Şurasında qəbul olunub**
**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**

**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**Doktorant və dissertantların elmi rəhbəri**
**(elmi məsləhətçisi) haqqında**

## ƏSASNANAMƏ

### 1. Ümumi müddəalar

Bu əsasnamə institutda fəlsəfə və elmlər doktoru proqramları üzrə təhsil alan doktorant və dissertantların elmi rəhbər və ya elmi məsləhətçilərinin təyin edilməsi, dəyişdirilməsi, azad edilməsi, həmçinin onların hüquq və vəzifələrini tənzimləyir.

1.1 Bu əsasnamə aşağıdakı rəsmi sənədlərlə tənzimlənir:

– Azərbaycan Respublikasının Konstitusiyası, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu,

– "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları" haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 01 iyul tarixli, 129 №-li qərarı;

– Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 №-li Fərmanı ilə təsdiq edilmiş, "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə" və "Elmi adlar verilməsi qaydası haqqında Əs-asnamə";

– Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bülleteni, Bakı: "Elm", 2013, 176 səh.;

– Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bülleteni, №1, Bakı: "Elm", 2015, 48 səh.;

– "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına və sərəncamlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2011-ci il tarixli Fərmanı;

– "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının fəaliyyətini tənzimləyən bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 21 fevral tarixli 857 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2019-cu il tarixli Fərmanı.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin və Nazirlər Kabinetinin fərman, sərəncamları və qərarları, Təhsil Nazirliyinin əmr və qərarları, normativ-hüquqi sənədləri, təlimatları və ARTİ-nin nizamnaməsi ilə nizamlanır.

### 2. Elmi rəhbərin (elmi məsləhətçinin) təyin edilməsi qaydası

**2.1.**İnstitutda ştat cədvəlinə uyğun çalışan elmlər doktoru elmi dərəcəsi və ya professor elmi adı olan şəxs doktorantın (dissertantın) elmi rəhbəri (məsləhətçisi) təyin oluna bilər. Zərurət yarandığı hallarda doktoranta (dissertanta) institutla elmi yaradıcılıq əlaqələri olan, digər təhsil müəssisələrində çalışan

və elmi-pedaqoji kadrların hazırlığı sahəsində təcrübəsi olan elmlər doktoru və ya professorlar sırasından elmi rəhbər (elmi məsləhətçi) təyin oluna bilər. Bu doktorantın (dissertantın) təhkim olunduğu şöbənin iclasının protokolundan müvafiq çıxarışın, institutun Elmi Şurasının qərarının və təyin olunacağı nəzərdə tutulmuş elmi rəhbər (elmi məsləhətçi) ilə institut arasında əmək münasibətləri haqqında müvafiq müqavilə əsasında həyata keçirilir.

**2.2.**Elmi rəhbər (elmi məsləhətçi) aşağıdakı göstəricilərə cavab verməlidir:

- bir qayda olaraq doktorantın (dissertantın) ixtisas profilinə uyğun olaraq elmlər doktoru elmi dərəcəsi (o cümlədən, xarici ölkədə verilmiş və Azərbaycan Respublikasında tanınmış) və ya professor elmi adına sahib olmalıdır;
- müstəqil elmi-tədqiqat, yaradıcılıq fəaliyyətini həyata keçirən və ya doktorantın (dissertantın) ixtisas profilinə uyğun olaraq belə fəaliyyətin aparılmasında iştirak etmək;
- emi-tədqiqat, yaradıcılıq fəaliyyətinin nəticələrinə aid ölkəmizin və ya xarici dövlətlərin impact-faktorlu jurnallarda müvafiq məqalələrin çap olunmasını təmin etmək, respublika və beynəlxalq konfranslarında məruzələrlə çıxış etmək;
- əlaqəli ixtisasların kəsişməsində elmi-tədqiqat işini həyata keçirən doktoranta (dissertanta) iki rəhbər və ya bir rəhbər və bir məsləhətçi təyin edilə bilər;
- zərurət yarandıqda, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının xüsusi icazəsi olunduğu halda doktorantın (dissertantın) ixtisas profilinə uyğun olaraq müstəqil elmi-tədqiqat, yaradıcılıq fəaliyyətini həyata keçirən fəlsəfə doktoru elmi dərəcəsi, dosent elmi adı olan alim rəhbər təyin oluna bilər.

**2.3.**Elmi rəhbərliyə (məsləhətçiliyə) namizəd aşağıdakı sənədləri institutun Elmi-pedaqoji kadr hazırlığı şöbəsinə təqdim etməlidir:

– elmi rəhbərliyə (məsləhətçiliyə) nəzərdə tutulmuş namizəd öz razılığını doktorant və ya dissertantla müsahibənin nəticəsi olaraq yazılı şəkildə (müvafiq formada) təqdim edir;

– çap olunmuş elmi əsərlərin siyahısı (o cümlədən, impact-faktorlu jurnallarda);

– iddiaçının seçdiyi ixtisasla elmi rəhbərin (məsləhətçinin) ixtisas uyunluğu fərqli olduqda dissertasiya işinin mövzusuna dair xülasə, müvafiq müqavilə, qrantlar və digər layihələrdə iştirakı haqqında məlumat və s;

– doktorantın (dissertantın) aidiyyatı üzrə təhkim olunduğu şöbənin iddiaçıya elmi rəhbərl (məsləhətçi) təyin edilməsi barədə iclas protokolundan çıxarışı.

**2.4.**Hər bir doktorantın (dissertantın) doktoranturaya (dissertanturaya) qəbul edilməsi və ona elmi rəhbər (məsləhətçisi) təyin olunması institutun Elmi Şurasının qərarı əsasında direktorun əmri ilə rəsmiləşdirilir.

**3. Elmi rəhbərin (elmi məsləhətçinin) dəyişdirilməsi**

**3.1.**Doktorantın (dissertantın) elmi rəhbəri (elmi məsləhətçisi) institutun Elmi-pedaqoji kadr hazırlığı şöbə-sinin təqdimatı, Elmi Şuranın qərarı əsasında aşağıdakı hallarda direktorun əmri ilə rəhbər-likdən (məsləhətçilikdən) azad oluna bilər:

- elmi işin mövzusunun dəyişdirildiyi halda;
- işlədiyi elmi-tədqiqat və ya təhsil müəssisəsində struktur dəyişikliyi nəticəsində elmi rəhbərin (məsləhətçinin) əmək vəzifələrinin dəyişdirildiyi halda;
- elmi rəhbərin (məsləhətçinin) şəxsi ərizəsi əsasında;
- doktorantın (dissertantın) rəhbərinin (məsləhətçinin) dəyişdirilməsinə dair əsaslandırılmış xahiş ərizəsi əsasında;
- doktorant (dissertant) xaric olunduqda;
- doktorantın (dissertantın) və ya rəhbərin (məsləhətçinin) cinayət məsuliyyətinə cəlb edildiyi halda;
- doktorantın (dissertantın) və ya rəhbərin (məsləhətçinin) vəfat etdikdə.

**3.2.**Elmi rəhbərin (məsləhətçinin) rəhbərlikdən azad edilməsindən bir aydan gec olamamaq şərtilə bu əsasna-mənin 3.1. maddəsində qeyd olunan bütün hallarda doktoranta (dissertanta) yeni rəhbər (məsləhətçi) təyin olunmalıdır.

**3.3.** Bu əsasnəmənin 2.2. maddəsinə uyğun olaraq doktorantın (dissertantın) təhkim olunduğu struktur şöbənin (kafedra, bölmə) rəhbəri təhsil alanın razılığı əsasında şöbədə (kafedra, bölmə) çalışan elmi işçilərin sırasından yeni rəhbər (məsləhətçi) təyin edə bilər.

**3.4.** Doktorantın (dissertantın) yeni elmi rəhbəri (məsləhətçisi) Elmi Şuranın qərarı əsasında institut direktorunun əmri ilə təsdiq edildikdən sonra onunla əmək müqaviləsi bağlanılır.

**4. Elmi rəhbərin (elmi məsləhətçinin) hüquq və vəzifələri**

**4.1.** Elmi rəhbərin (məsləhətçinin) hüquqları:

- doktorantın (dissertantın) fərdi iş planında nəzərdə tutulmuş hər hansı bir fəaliyyətin vaxtında yerinə yetirmədiyi və ya keyfiyyətsiz yerinə yetirdiyi, doktoranturada (dissertanturada) hazırlıq proqramı çərçivəsində elmi rəhbərinin (məsləhətçinin) göstərişlərini yerinə yetirmədiyi halda elmi rəhbər (məsləhətçi) onun attestasiya olunmaması haqqında Attestasiya komissiyası qarşısanda vəsatət qaldıra bilər;
- fərdi iş planında nəzərdə tutulmuş hər hansı bir fəaliyyətin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirən doktorantın (dissertantın) mükafatlandırılması, onun müxtəlif qrant və müsabiqə layihələrində iştirakına imkan yaradılması haqqında institutun Elmi Şurası qarşısında vəsatət qaldıra bilər.

**4.2. Elmi rəhbərin (məsləhətçinin) vəzifələri:**

- elmi rəhbərliyə (məsləhətçiliyə) nəzərdə tutulmuş namizəd doktoranturaya (dissertanturaya) qəbul üçün sənəd təqdim edən şəxslə ilkin müsahibə aparır;
- doktorantın (dissertantın) fərdi iş planının tərtibində iştirak edir;
- doktorantın (dissertantın) dissertasiya mövzusunun seçimində, elmi tədqiqatın qarşısında qoyulan məqsəd və vəzifələrin müəyyən edilməsində iştirak edir;
- müvafiq elmi ədəbiyyatın seçimində doktoranta (dissertanta) tövsiyələr verir;
- elmi-tədqiqat işinin və tədris-metodiki işin həyata keçirilməsinə dair mütəmadi olaraq doktoranta (dissertanta) lazımı məsləhətlər verir;
- doktoranta (dissertanta) dissertasiya işinin yazılmasında lazımi elmi və metodiki köməklik göstərir;
- doktorantın (dissertantın) elmi, tədris və pedaqoji fəaliyyətinin əlaqələndirməsini təşkil edir;
- nüfuzlu respublika və xarici elmi mətbuatda və xüsusən impact-faktorlu jurnallarda dərc edilməsi üçün elmi işlərin hazırlanmasında doktoranta (dissertanta) müvafiq tövsiyələr verir;
- respublika, beynəlxalq əhəmiyyətli konfranslarda, eləcə də institutun elmi seminarlarında elmi məruzələrin hazırlanmasında doktoranta (dissertanta) məsləhətlər verir;
- doktorantın (dissertantın) fərdi iş planında qeyd olunmuş bütün növ fəaliyyətinin vaxtında yerinə yetirilməsinə nəzarət edir;
- doktorantın (dissertantın) elmi-tədqiqat fəaliyyəti haqqında rəyini ildə bir dəfə olmaqla (aralıq attestasiya zamanı) Elmi-pedaqoji kadr hazırlığı şöbəsinə təqdim edir;
- rəhbərlik etdiyi doktorantın (dissertantın) yekun attestasiyasında iştirak edir;
- yekun attestasiyası keçirilməsinə ən azı 10 gün qalmış doktorantın (dissertantın) dissertasiyasına rəy verir;
- doktarantın (dissertantın) müvafiq ixtisas profilinə uyğun olaraq hazıladığı dissertasiya işinə rəy hazırlayır;
